## İLİN ƏN YAXŞI XƏBƏR SAYTI

*Ötən ilin sonlarında "Dünyanın ən yaxşı qəzet saytı" seçilmiş "The Daily Mail" yeni mükafat alıb*

Qəzet Britaniya Redaktorlar Şurasının (Society of Editors) "2012-ci ilin ən yaxşı veb-saytı" (Website of the Year 2012) mükafatına layiq bilinib.


Daily IRISH Mail
THIS PAPER COSTS JUST 50c
BUTCHERED BY THE BRITISH
Oireachtas report finds damning evidence of collusion between UK security forces and loyalist terrorists in string of atrocities
Top Russian politician poisoned in Ireland say family
SEE PAGE FIVE

Bu minvalla "The Daily Mail"in Mail Online saytı mükafatın üçqat sahibi olub.

Mail on Sunday qəzeti indiyədək *Website of the Year* mükafatını 2 dəfə almışdı.

Mail Online artıq üçüncü ildir dalbadal Britaniya qəzetçilərinin "Oskar"ı sayılan mükafatı alır.

Mail Online həm də dünyanın ən populyar xəbər saytlarından biridir. Sayt 2013-cü ilin əvvəlindən sürətlə, hətta fenomenal şəkildə inkişaf edib.

Yanvar ayında sayta 126 753 431 oxucu daxil olub.

Ekspertlərin fikrincə, Mail Online Britaniyada və dünyada baş verən olaylar barədə ən operativ, geniş və müfəssəl şəkildə xəbər verir.

"The Daily Mail"in köşə yazarı Kreyq Braun "İlin ən yaxşı tənqidçisi", "Mail of Sunday"in yazarı Saymon Uolters "İlin ən yaxşı siyasi jurnalisti" adlarına layiq görülüblər.

"İlin qəzeti" mükafatını The Times" alıb.

## ÖLÜM HÖKMÜNÜN İCRASININ YENİ ÜSULU

*Səudiyyə Ərəbistanı hökuməti elan edib ki, bundan sonra ölüm hökmləri güllələnmə ilə icra edilə bilər*

Bu günə qədər bu ölkədə ölüm hökmləri ictimaiyyət qarşısında boyunun vurulması ilə həyata keçirilirdi.

Bir neçə nazirliyin nümayəndələrindən ibarət xüsusi komissiya nəticəyə gəlib ki, ***ixtisaslı cəlladların azlığı ucbatından boyun vurulması güllələnmə ilə əvəzlənməlidir.*** Hazırda fəaliyyət göstərən ixtisaslı cəlladların sayı az olduğuna görə, onlar ölüm hökmlərinin icrası üçün müxtəlif regionlara ezam olunurlar. Belə olanda, bəzən ölüm hökmlərinin icrası gecikir ki, bu da lazımsız söz-söhbətlərə yol açır.

Bu səbəbdən xüsusi komissiya hökumətə təklif edir ki, ənənəvi edam cəzası güllələnmə ilə əvəzlənsin.

## KONQRESMENİN TƏLƏBİ: HAKİMİYYƏTDƏ AFROAMERİKALILARA YER VERİN

*ABŞ Konqresinin qara dərili üzvləri prezident Barak Obamadan hakimiyyətdə afroamerikalıların sayının artırılmasını tələb ediblər*



Məsələyə dair təklif və tənqidlə konqresin qara dərili üzvlər birliyinin sədri, Ohayo ştatının təmsilçisi Marsia Fac danışıb.

"Mən narahatam. Siz yeni adminstrasiyanı təyin edirsiniz, ancaq onların arasında afroamerikalı yoxdur. Ancaq siz açıq-aşkar bildiribsiniz ki, kabinetdə etnik müxtəlifliyi qoruyacaqsınız. Seçdikləriniz bu rəngarəngliyə güclə uyğun gələr" - deyə, Facın prezidentə açıq məktubunda vurğulayıb.

Mənbə xatırladıb ki, prezident afroamerikalıların maraqlarını "təmin etmədiyi üçün" əvvəllər də tənqid olunub. Onda prezident tənqidləri belə cavablandırmışdı:"Mən bunu yanlış yanaşma sayıram. Biz hamımız eyni vəziyyətdəyik. Bizə bu durumdan çıxmaq lazımdır".

# AZƏRBAYCAN XALQ YARADICILIĞI HAQQINDA

( *folklor* )

*Pərvaz Babayeva,*
*ADPU-nun baş müəllimi*

I

Azərbaycan dünyanın ən zəngin folklor sərvətlərindən birinə sahibdir. Azərbaycan ədəbiyyatının qaynağında zəngin və dərin məzmunlu Azərbaycan folkloru durmaqdadır. Mifoloji - bədii dünyagörüşün izləri folklorda və klassik ədəbiyyatda indi də özünü büruzə verməkdədir. Azərbaycan mifologiyası qədim hind, qədim yunan mifologiyası qədər sistemli və bütöv xarakter daşımır. Ancaq Azərbaycan folklorunda Azərbaycan mifologiyasının izlərini aşkar etmək mümkündür. Bunlar daha çox kosmoqonik və mövsümi, eləcə də etnoqonik miflərin müəyyən detallarını özündə daşımaqdadır. İnsan cəmiyyətinin ilkin formalaşma dövrünün bədii təfəkkür məhsulları olan mifik ünsürlərdə kosmosla xaos, yəni dünya düzəni ilə qarmaqarışıqlıq, nizamsızlıq, dünya düzəninin bu nizamsızlıqdan yaranması və eyni münasibətlərin insan cəmiyyətində əks olunması özünə yer tapmışdır. Mifik dünyagörüşündə insan cəmiyyətinin kosmos, yəni əksər insanlar tərəfindən qəbul edilmiş qayda - qanunlar toplusu əsas etibarilə cəmiyyətin aparıcı nizamını - ailə, məişət, insanla təbiət arasında qarşılıqlı anlaşma proseslərini əhatə edir.

Azərbaycan folklorunun özəlliklərindən birini - onun başqa türk xalqlarının folkloru ilə ortaq cəhətlərə malik olması təşkil edir. Bu xalqların şifahi söz sənətində bir çox mətnlərin üst - üstə düşməsi həmin örnəklərin vahid etnocoğrafi məkanda meydana gəlməsini göstərir. Ortaq türk folkloruna aid olan dastanlar arasında “Oğuznamə”lər xüsusi bir silsilə təşkil edir. “Köç”, “Ergenekon”, “Şu”, “Qayıdış” kimi dastanlarda isə bütöv şəkildə prototürklərin mühüm problemləri öz bədii - mifoloji əksini tapmışdır. Həmin dastanların çoxu xülasə şəklində XI yüzillikdə yaşayıb - yaratmış türk alimi Mahmud Kaşqarlının “Divani-lüğət-it-türk” (“Türk dilinin divanı”) əsərində öz əksini tapmışdır. Bu dastanlar xalqların böyük hicrəti dövrünün bədii - mifik dünyagörüşünü özündə saxlamaqdadır.

Azərbaycan folkloru janr zənginliyinə malikdir. Epik folklor janrlarından nağıl və dastanlar, xalq müdrikliyinin ifadəsi olan atalar sözləri və zərbi - məsəllər tarix boyu qonşu xalqların folklor və klassik ədəbiyyatına güclü təsir göstərmişdir. Lirik janrlardan bayatılarda xalq həyatının və məişətinin müxtəlif tərəfləri bədii - emosional şəkildə əks olunmuşdur. Qədim türk xalqlarının özünəməxsus poeziyası olmuş və bu poeziya türklərin milli vəzni olan heca və ya “barmaq” vəznində yaradılmışdır. Müxtəlif şeir şəkillərində hecaların sayı müxtəlif olsa da, epik süjetli uzun şeirlər və dastanlar əsas etibarilə yeddihecalıq formada yaradılmışdır. Bu cür şeirlər insanın yaddaşında daha yaxşı qorunub saxlanılır. Azərbaycan bayatıların da hər misrası yeddi hecadan ibarət olur.

Azərbaycan folklorunun ən zəngin janrlarından birini bayatılar təşkil edir. Bayatılar əsasən insanın lirik - fəlsəfi duyğularını yığcam poetik şəkildə ifadə etməyə xidmət göstərir. Bu poetik formanın məzmun növləri arasında layla, nazlama, ağı, sayaçı sözü, holavar, vəsfi - hal və s. örnəklər vardır. Bundan başqa, bayatı - bağlama, bayatı - deyişmə, bayatı - tapmaca kimi örnəklər də bu poetik formanın daxilində özünə yer tutur. Bayatılar dörd misradan, hər misra yeddi hecadan ibarət olur. Qafiyələnmə sistemi əsasən a - a - b - a şəklindədir. Tarixən türkdilli poeziyada cinasa çox fikir verildiyindən, qafiyələri cinasdan ibarət olan bayatı örnəkləri də çoxdur. Bayatıda, adətən, birinci və ikinci misralar əsas mənanı ifadə etmək üçün hazırlıq rolunu oynayır.

Geniş yayılmış lirik folklor janrlarından birini də xalq mahnıları təşkil edir. Bunlar konkret musiqi motivinə bağlı olan müxtəlif formalı poetik mətnlərdir. “Aman nənə”, “Ay lolo”, “ Sona bülbüllər”, “Süsən sünbül” və s. xalq mahnıları indi də müğənnilərin repertuarında qalmaqdadır. İfa tərzinə görə xalq mahnıları arasında solo, xor və deyişmə - mahnılar seçilir.

Xronoloji baxımdan epik folklor janrlarından əfsanələr ilk öncə nəzərdən keçirilir. Əfsanələri başqa epik janrlardan fərqləndirən başlıca əlamət - onda fantastik element və hadisələrin iştirak etməsidir. Eyni əlamətin daşıyıcısı olan sehirli nağıllardan fərqli olaraq, əfsanələrdə süjet bitkin xarakter daşımayıb, yalnız bir fraqment şəklində olur.Təsvir etdiyi obyekt və hadisənin məzmununa görə Azərbaycan folklorunda əfsanələr kosmoqonik, zoonimik, toponimik, etnoqrafik, dini, tarixi, qəhrəmanlıq və s. xarakter daşıyır. Ən qədim əfsanələr kainat, dünya və səma cisimlərinin yaranması ilə bağlı olan örnəklərdir.

Azərbaycan folklorunun janrları arasında əfsanə və rəvayətlərdən sonra nağıllar epik növün ən geniş yayılmış örnəklərini təşkil edir. Atalar sözü və məsəllər də Azərbaycan folklorunun epik janrları arasında geniş yayılmışdır. Xalqın uzun əsrlər boyu əldə etdiyi təcrübələrin ümumiləşmiş yekunu, nəticəsi olan atalar sözü və məsəllər türk xalqları arasında geniş yayılmış, bir çox hallarda cəmiyyətdə əxlaq kodeksini əvəz etmişdir. Bu janrın ilk örnəkləri Mahmud Kaşqarlının “Divani-lüğət -it-türk”, “Kitabi-Dədə Qorqud” kimi klassik yazılı abidələrdə özünə yer tapmışdır.Oğuz tayfalarının müdrikliyini ifadə edən xüsusi atalar sözü

topluları - “Oğuznamə”lər də Azərbaycan folklorunun qiymətli abidələrindəndir. Azərbaycan folklorunun dramatik janrları xalq oyunları və meydan tamaşaları ilə təmsil edilmişdir. Bunların ən səciyyəvi örnəyi kimi “Kosa - kosa” dramını göstərmək olar. İslamın qəbulundan sonra peyğəmbər ailəsinə məxsus müqəddəslərin faciəsi mövzusunda xalq arasında geniş yayılmış şəbihlər də xalq dramlarına daxildir.

Azərbaycan folklorunun ilk örnəkləri yazılı şəkildə qədim yunan tarixçisi Herodotun “Tarix” əsərində ( e.ə. V əsr ) bizə gəlib çatmışdır. Bunlar - qədim Azərbaycan dövləti Midiyanın süqutunun və İran dövləti tərəfindən işğalının səbəbləri haqqında xalq bədii təfəkkürünün məhsullarıdır. Bu əfsanələr “Astiyaq”, “Tomris” və başqa adlarla Herodotun əsərində yazıya alınmışdır. İndiki mənada tarix əsəri deyil, həm də bədii əsər qələmə almış Herodot, Azərbaycan əfsanələrini də yüksək bədiiliklə işləmiş və təsirli psixoloji səhnələr yaratmağa müvəffəq olmuşdur. “Tomris” əfsanəsi bu baxımdan daha diqqətəlayiqdir. İşğalçılıq məqsədi ilə Midiyaya hücum edib, ölkəni viran qoyan İran şahını məğlub etmiş Midiya sərkərdəsi - qəhrəman qadın Tomris onun başını kəsib bir qan tuluğuna salır ki, tökdüyü qandan doyunca içsin. “Astiyq” əfsanəsində mifoloji qat daha güclüdür. Burada əsas hadisələr yuxugörmə və taleyin əvvəlcədən müəyyən edilməsi üzərində qurulmuşdur. İlahi qüvvələrin təyin etdiyi taleyin dəyişdirilməsində insanın nə qədər gücsüz olduğu - Astiaqın faciəsi örnəyində təqdim edilir. Eyni motivlər qədim dünyanın bir çox ədəbiyyatlarında, o sıradan antik yunan ədəbiyyatında geniş yayılmışdır.

## II

Azərbaycan xalq mahnılarının qorunub saxlanılması işində bəstəkar Üzeyir Hacıbəyovun və Müslüm Maqomayevin əvəzsiz xidmətləri var, Azərbaycan musiqi folkloru onların təşkilatçılığı ilə 1927-ci ildə “Azərbaycan türk el nəğmələri” toplusu halında nəşr edilib. Bundan başqa Fikrət Əmirov, Qara Qarayev, Tofiq Quliyev, Asəf Zeynallı kimi bəstəkar və musiqişünasların da milli musiqimizin inkişafı yolundakı xidmətləri, danılmaz faktdır.

Azərbaycan musiqi folkloru haqqında İ.Dobrovolski, P.Siyalski, A.Koroşeko, P.Vostrikovun məqalələrində də geniş məlumatlar yer alıb. Ən maraqlısı odur ki, dünya şöhrətli Şopen musiqimizə olan sevgisindən dolayı “Koroğlu” dastanının ayrı - ayrı hissələrindəki qəhrəmanlıq nəğmələrini doğma dilinə tərcümə etdirib.

Azərbaycan xalqının musiqi - poetik yaradıcılığının ən qədim və önəmli janrlarından olan mahnılarda onun pak, yüksək mənəviyyatı, daxili aləmi, arzuları, ümidləri parlaq şəkildə əks olunmuşdur.

Azərbaycan xalq mahnıları mövzu və məzmunun müxtəlifliyinə, musiqi və poetik dilin aydınlığına, rəngarəngliyinə görə bir neçə janr qrupuna ayrılır. Onlardan əmək mahnılarını, mərasim mahnılarını, məişət (bura lirik mahnılar da daxildir) və tarixi mahnıları göstərmək olar.

Xalq yaradıcılığının ən qədim janrı əmək mahnılarıdır ki, bu mahnılar arasında ən geniş yayılanları maldarlığa həsr olunmuş sayaçı mahnıları, əkinçiliklə məşğul olanlar arasında isə ən geniş yayılanları holavar əmək mahnılarıdır. Ən qədim mahnılara “Çoban avazı”, “Tutu nənəm”, “Sağım mahnısı”, “Çiçək şumla yeri”, “Şum nəğməsi” və başqalarını misal göstərmək olar.

Mahnı yaradıcılığının qədim növlərindən biri də mərasim mahnılarıdır. Xalqın bayram şənlikləri, toy və matəm mərasimləri adəti üzrə ənənəvi mahnılar ilə müşayiət olunmuş və bu mahnıların bir çoxu bu günə kimi xalq arasında yaşamaqdadır. Qədim dövrlərdə yaranmış və mövsüm mərasimlərində oxunan, günəşə, oda, yağışa və s. təbiət qüvvələrinə həsr edilmiş mahnılar bu qəbildəndir. Məsələn: “Günəş çıx, çıx, çıx! Kəhər atı min çıx” və yaxud “Yağış yağır”, “Xıdır İlyas”, “Səməni”, “Kos - kosa”, “Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş” xalq oyun və mərasim tamaşaları ənənəvi mərasim mahnıları ilə zəngin olub, onlarla müşayiət edilərdi. Bu mahnıların mətnini xalq ədəbiyyatının ən geniş forması olan bayatılar təşkil edirdi.

Məişət mahnıları da məzmununa, formasına və ifadə etdiyi hisslərə görə uşaq mahnılarına, yumorlu və satiralı mahnılara və lirik mahnılara bölünürlər. Uşaq mahnıları, xüsusilə də anaların uşaqlara oxuduqları beşik mahnıları öz tarixi etibarilə məişət mahnılarının ən qədim növüdür. Beşik mahnılarına ninnilər, laylalar və oxşamalar daxildir. Adını çəkdiyimiz məişət mahnılarına lirik mahnılar da daxildir ki, bu mahnılarda saf məhəbbət, sevgilinin gözəlliyinin vəsfi, ayrılıq, intizar, qəm, qüssə və s. hisslər məzmununun əsasını təşkil edir. Lirik mahnı yaradıcılğı xalqın milli bədii özünüifadə vasitələrindən ən güclüsünə çevrilmişdir. Bu mahnıların bəziləri məzmununa görə nikbin, şad ruhda, bəziləri isə qəmli, kədərli ruhdadır. Lirik mahnılar formasına görə də daha geniş və mürəkkəbdir. Onlar üçün kuplet forması, həmçinin mürəkkəb ikihissəli və rondo formasına bənzər forma, variantlı təzələnmənin təkrarı, sekventlik və s. xasdır.

Azərbaycan xalqının mahnı yaradıcılığında vacib yeri həm də epik - tarixi və qəhrəmanlıq mahnıları tutur. Hələ qədim dövrlərdən yaranmağa başlamış bu mahnılar ölkənin tarixində baş vermiş hər hansı tarixi hadisəyə və ya xalqın həyatında görkəmli rol oynamış xalq qəhrəmanlarına həsr edilmiş mahnılardır.

Xalq arasında geniş yayılmış, sevimli mahnı janrı ilə bərabər Azərbaycan xalqının milli folklor musiqisinin vacib hissəsini rəqs musiqisi təşkil edir. Xalq rəqsləri Azərbaycan milli instrumental musiqimizin əsasıdır. Rəqslər xalq tərəfindən yaranıb əsrlərdən bəri şifahi halda nəsildən nəslə keçmişdir. Azərbaycan instrumental xalq rəqs musiqisi üçün melodiya zənginliyi, quruluşunun simmetrikliyi, diapozon müxtəlifliyi, tədrici inkişaf, təkrar, variasiya və sekvensiya metodu

səciyyəvidir. Rəqslər özünəməxsus lad əsası, metro - ritmik xüsusiyyətləri və rəngarəng formaları ilə seçilirlər. Xalq mahnılarında olduğu kimi, rəqslərdə də xalqın hissləri, duyğuları, xasiyyəti, temperamenti əks olunmuşdur.

Xalq rəqsləri arasında qadın rəqsləri özünün lirikliyi, zərifliyi, incəliyi ilə seçilirlər. Məsələn: "Nəlbəki", "Ceyranı" və s. Kişi rəqslərinə isə coşqun hisslər, cəld ritm, güc, temperament xasdır. Məsələn: "Qaytağı", "Cəngi", "Qazağı", "Xançobanı" və s.

Xalq arasında kollektiv rəqslər də mövcuddur. Onlardan çoxu əmək prosesini və məişət mərasimlərini müşayiət edirlər. Məsələn: "Halay" rəqsləri bu qəbildəndir. "Vağzalı" rəqsi isə, adətən, toy mərasimini müşayiət edir. Qadınlar və kişilərin birgə ifa etdiyi rəqslərdən bilri "Yordu - yordu" rəqsidir. Qədim kollektiv rəqslərdən isə geniş yayılanı "Yallı"dır ki, öz kökü ilə çox qədim dövrlərə gedib çıxır.

Azərbaycanın musiqi folklorunda mahnı, rəqs musiqisiylə bərabər xalqın şifahi professional ənənələrinin janrları da yaşayıb inkişaf edirdi. Onlardan ən önəmlisi muğamlar idi. Muğamlar Azərbaycanın, eyni zamanda, Yaxın və Orta Şərq xalqlarının milli klassik musiqisinin zirvəsi, dərin, mürəkkəb məzmun, ideya, emosional məna daşıyan xalq vokal instrumental kompozisiyasının ən yüksək yaradıcılıq nümunəsidir. Qədim zamanlardan başlayaraq, əsrlər boyu muğamın tədricən inkişafı onun formalaşmasına, kamilləşməsinə səbəb olmuşdu.

Muğam ifaçıları isə - xanəndə və onu müşayiət edən sazəndə dəstəsi ( üçlük - tar, kamança, dəf ) və yaxud solo instrumentalistlər özlərinin yaradıcılıq fantaziyası, bacarığı, istedadından asılı olaraq, əsrlər boyu bu muğam əsərinə müxtəlif dəyişikliklər, yeni çalarlar, xallar, zəngulələr və s. daxil etmişlər. Xanəndələr muğamlarda lirik - fəlsəfi qəzəllərdən istifadə edirlər.

Azərbaycan muğamlarında başqa xalqların muğamlarından fərqli olaraq improvizə daha çoxdur, daha parlaqdır. Ona görə professional muğam ifaçıları həm də bu muğamların yaradıcısı kimi çıxış edirlər.

Azərbaycan musiqisinin professional şifahi ənənələrinə muğamlarla bərabər, aşıqların musiqi - poetik yaradıcılığı da daxildir. Hələ qədim dövrlərdə meydana gəlmiş aşıq sənəti xalqın istək və arzularının tərənnümçüsü olduğu üçün xalq arasında çox sevimli və məşhur idi. Öz əsası etibarilə demokratik mahiyyət daşıyan aşıq yaradıcılığının məzmunu çox genişdir, müxtəlifdir və rəngarəngdir. Aşıq sənətinə qədim epik dastanlar, xalqın azadlığını, qəhrəmanlığını tərənnüm edən mahnılar, satirik və yumoristik və həm də dostluğu, məhəbbəti vəsf edən mahnılar daxildir. Aşıq sənəti sintetikdir, yəni aşıq şeir yazır, musiqi bəstələyir, həm də oxuyaraq sazda çalır və rəqs edir. Aşığı çox vaxt balaban və nəfəsli alətlər ansamblı da müşayiət edir. Lakin aşığın əsas musiqi aləti sazdır. Saz qədim Azərbaycan dartımlı simli musiqi alətidir. Alətin gözəl tembrinə görə sazı şairlər həmişə vəsf etmişlər. Aşıq yaradıcılığının ən geniş yayılmış janrı dastandır. xüsusilə də qəhrəmani - epik dastanlar. Dastanlarda vokal - instrumental hissələr şeirlə danışıq parçalarını əvəz edir.

Aşıq yaradıcılığının lirik janrında tərifləmələr, "gözəlləmə"lər xüsusilə məşhurdur. Bu "gözəlləmə"lər həm sevimli, gözəl qadına, həm də qəhrəmana, məsələn igid Koroğluya, onun əfsanəvi Qıratına həsr oluna bilər. Aşıqların mahnılarının bir hissəsi qəm, kədərlə doludur, "Yanıq Kərəmi", "Dilqəmi" kimi; digər hissəsi isə "Əfşarı", "Şərili" kimi oynaq hərarətli mahnılardır ki, aşıq lirikasının gözəl nümunələrinə aiddir.Aşıq yaradıcılığında nəsihətamiz mahnılardan ibarət ustadnamə janrı da maraqlıdır.

Qədim dövrlərdə və orta əsrlərdə aşıqlara "ozan", "varsaq", "dədə" deyirdilər. Müasir Azərbaycan aşıqlarının əcdadı olan qədim ozanların həyatına, məhəbbətinə, vətənpərvərliyinə, igidliklərinə həsr edilmiş ən qədim yazılı mənbə yeddinci əsrə aid olan "Kitabi - Dədə Qorqud" xalq dastanıdır. Oğuz ozanlarının əsas musiqi aləti qopuz idi və mifoloji rəvayətlərə görə bu aləti icad edən və onun gözəl ifaçısı da Dədə Qorqud olub.

İlk dəfə aşıq musiqisinin təkrarsız xüsusiyyətlərindən böyük professionallıq və bacarıqla istifadə edən bəstəkarımız Ü. Hacıbəyli olmuşdu (özünün şah əsəri olan "Koroğlu" operasında).Müasir musiqinin texniki vasitələriylə aşıq musiqisinin xüsusiyyətlərini ustalıqla birləşdirən digər bəstəkarımız Q.Qarayev üçüncü simfoniyasının ikinci hissəsində onların gözəl vəhdətini yarada bilmişdir.

Tarixən, illər, əsrlər boyu Azərbaycanın ozan - aşıq musiqisinin musiqi folklorumuzun digər sahələrinə, növlərinə və sonralar da müasir dövrdə bəstəkarlarımızın yaradıcılığına təsiri böyük olmuşdu və müasir dövrdə də davam edir.

**Ədəbiyyat**


**1.** Ə.Bədəlbəyli – "Not yazısı necə yaranmışdır" ("Elm və həyat" jurnalı. Bakı – 1964 )

**2.** S.Seyidova – "Azərbaycan xalq professional musiqisi" Bakı - 1998

**3.** Az.Dövlət Konservatoriyası – Ученые записки №2 Bakı – 1974

**4.** Azərbaycan folklorunun antologiyası IIIc Bakı – 2000

**5.** Azərbaycan folkloru – Şərq – Qərb Bakı – 2005

**6.** M.Hakimov – "Azərbaycan aşıq ədəbiyyatı" Bakı - 1983

**7.** M.Qasımlı – Ozan-aşıq sənəti "Uğur" – Bakı – 2003

**8.** Azərbaycan xalq dastanları Ic Bakı - 1966

## DÜNYA ARXİVLƏRİNDƏ AZƏRBAYCANIN TARİXİ ƏRAZİLƏRİ İLƏ BAĞLI ÇOXLU SAYDA XƏRİTƏLƏR AŞKARLANMIŞDIR

*Mütəxəssislərimiz rus, türk, ərəb, Avropa, Orta Asiya ölkələrinin arxivlərindən Azərbaycana aid xəritələr tapmışlar. Eyni zamanda eramızdan əvvəlki dövrlərə aid olan müxtəlif xarici xəritələrin toplanması işi də aparılır. AzərTAc xəbər verir ki, nəticədə indiyədək mübahisə doğuran bəzi faktlara aydınlıq gətirilmişdir*

Mütəxəssislərimiz rus, türk, ərəb, Avropa, Orta Asiya ölkələrinin arxivlərindən Azərbaycana aid xəritələr tapmışlar.

AzərTAc xəbər verir ki, nəticədə indiyədək mübahisə doğuran bəzi faktlara aydınlıq gətirilmişdir. Məsələn, ermənilər həmişə iddia edirlər ki, Qarabağ eramızın ilk beş əsrində onların uydurduğu "Böyük Ermənistan"ın ərazisində olmuşdur. Bu ərazilərin qədim Qafqaz Albaniyasının tərkibində olduğunu göstərən xəritələr onların iddialarını təkzib edir.

Azərbaycan Demokratik Respublikasının da indiyədək məlum olmayan yeni xəritələri tapılmışdır. Bunlar Qarabağın, Zəngəzurun və digər torpaqların bizim ərazilər olduğunu göstərən sənədlərdir.

## AĞILLI HƏYAT SENSORU HAZIRLANMIŞDIR

*"Toshiba" şirkəti həyat fəaliyyəti parametrlərinin intellektual sensorunu hazırlamışdır. Onun vasitəsilə orqanizmin əsas göstəricilərini uzaqdan kontrol etmək mümkün olacaqdır. Bu, xəstələr, təyyarəçilər, xilasedicilər, eləcə də doğmalarının vəziyyətinə görə daim narahat olan sadə insanlar üçün vacibdir*

"Toshiba" şirkəti həyat fəaliyyəti parametrlərinin intellektual sensorunu hazırlamışdır. Onun vasitəsilə orqanizmin əsas göstəricilərini uzaqdan kontrol etmək mümkün olacaqdır. Bu, xəstələr, təyyarəçilər, xilasedicilər, eləcə də doğmalarının vəziyyətinə görə daim narahat olan sadə insanlar üçün vacibdir.

Yeni sensor 32 bitlik çip ilə, məlumatların simsiz ötürülməsi sistemi ilə təchiz olunmuşdur. Çipin qabariti cəmi 14,5x14,5 millimetrdir, əgər ona antena, akkumulyator, müxtəlif sensorlar əlavə edilsə, onda orqanizmin həyat üçün vacib funksiyaları parametrlərinin ən kompakt sensorlarından biri alınar.

"Silmee" adlandırılan sensor eyni zamanda orqanizmin vəziyyəti haqqında məlumatları toplayır: elektrokardioqram edir, nəbzi, bədənin hərarətini ölçür, hərəkətləri qeydiyyata alır və s. Bu məlumatları simsiz rabitə ilə Bluetooth vasitəsilə smartfona və ya planşetə, oradan isə planetin istənilən nöqtəsinə göndərmək olar.

Hazırlanmış sensor 25x60 millimetr qabaritli və cəmi 10 qram ağırlığında olacaqdır. Ölçülərinin və çəkisinin belə kiçik olması sensorun pasiyentin əməliyyat sonrası vəziyyətinə nəzarətdən tutmuş təlim zamanı əsgərlərin və məktəbdə uşaqların izlənməsinədək müxtəlif istiqamətlərdə tətbiqinə imkan verəcəkdir.

Hazırda bazarda elektron tonometrlər və ya termometrlər kimi kifayət qədər kompakt tibbi cihazlar vardır. "Silmee" bu cihazların hamısını bir korpusda birləşdirir və yeni tibbi xidmətlərin inkişafına yol açır. Bundan başqa, xəstələrə qulluq, uşaqlara nəzarət sahəsində bir çox "qeyri-standart" əlavələr mümkündür.

"Silmee" həm də bəzi mobil əlavələr, məsələn, konkret insanın sizdən nə dərəcədə xoşlandığını müəyyənləşdirən mobil əlavələr üçün aparat təminatı qismində çıxış edə bilər.

## İNANILMAZ SÜRƏT

*Alimlər məlumatları 1 Tbit/s sürətində ötürən antena yaradıblar*



Corciya Texnoloji İnstitutunun alimləri qrafendən məlumatların simsiz ötürülməsinin sürətini saniyədə 1 terabitdən çox təmin edən (saniyədə bir neçə HD formatlı filmi ötürə bilən) simsiz antena icad ediblər.

Lent.az-ın Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin rəsmi saytına istinadən verdiyi məlumata görə, bu, inanılmaz sürətdir.

Hazırda məlumatları bir kompüterdən digərinə köçürmək üçün bir neçə saat vaxt sərf etmək lazımdır. Yeni texnologiya proseduranı bir neçə saniyəyədək azalda bilir. Lakin qrafen antena qeyd edilən sürəti qısa məsafədə - cəmi 1 metrdə təmin edə bilir. Məsafə nə qədər az olsa, sürət bir o qədər yüksək olar.

# PREZİDENTLƏR VƏ DİGƏR DÖVLƏT MƏMURLARI GƏLİRLƏRİNİ AÇIQLAYIRLAR

## PUTİN VƏ MEDVEDEVİN GƏLİRLƏRİ ARTIB

*Aprelin 12-də Rusiya prezidenti Vladimir Putin və onun adminstrasiyasının əməkdaşları gəlirləri haqqında açıqlama yayıblar*



2012-ci ildə Kremlin indiki yiyəsinin 5 milyon 790 min 823 rubl gəliri olub. Bu, Putin baş nazir olanda, 2011-ci ildəkindən iki milyon çoxdur. Onda baş nazir Putinin gəliri 3 milyon 66 min rubl olmuşdu.

Hakimiyyət nazirlər kabineti üzvlərinin də gəliri barəsində açıqlama təqdim edib. Həmin vergi qətnaməsinə əsasən, baş nazir Dmitri Medvedevin gəliri 2012-ci ildə 5 milyon 814 min 351 rubl olub. 2011-ci ildəki gəlirindən bu, iki milyon rubl artıqdır. Xatırladaq ki, onda Medvedev prezident idi.

Hökumtdə ən varlı adam baş nazirin birinci müavini İqor Şuvalovdur. 2012-ci ildə onun gəliri 226,4 milyon rubl olub. Şuvalovun xanımı isə qətnamədə 222 milyon rubl gəliri olduğunu göstərib.

## YANUKOVİÇ ƏN ÇOX QONORARDAN QAZANIB

*Aprelin əvvəllərində elan edildiyinə görə o, müəllif qonorarı olaraq 2 milyon dollar alıb*



Ukraynanın dövlət başçısı Viktor Yanukoviç 2012-ci ildə 2,5 milyon dollar qazanıb. Ukrayna liderinin prezident maaşı cəmi 97 min dollar olub. Amma Viktor Yanukoviç banklardakı əmanətlərinin faizi kimi yarım milyon dollardan çox qazanc əldə edib. O, kitab nəşrindən müəllif qonorarı olaraq daha 2 milyon dollar alıb.

## OBAMANIN GƏLİRİ PUTİNDƏN ÇOX, YANUKOVİÇDƏN AZ OLUB

*ABŞ prezidenti Barak Obama və onun həyat yoldaşı Mişel 2012-ci ildə 608 min 611 dollar qazanıb*



Ölkənin birinci cütlüyü vergiyə 112 min 214 dollar ödəyib. Bunlardan 150 034 dolları xeyriyyə məqsədinə sərf olunub.

Vitse-prezident Cozef Bayden və həyat yoldaşı Cill ötən il 385 072 dollar qazanıblar. Bundan 87 min 851 dolları vergi orqanlarına ödənilib.

## RUSİYADA KOSMOS NAZİRLİYİ YARADILA BİLƏR

*Bu barədə ölkə prezidenti Vladimir Putin bildirib*

Putinin fikrincə, bu sahədə praktik olaraq, hər şey dövlətə məxsusdur. "Son illər kosmonavtika sahəsində böyük nailiyyətlər qazanmışıq və bu istiqamətdə fəaliyyətimizi genişləndirməliyik. Ona görə də, belə bir nazirliyin yaranmasına ehtiyac var", - deyə, o, bildirib.

## TUNİSƏ 29 MİLYON QAYTARILDI

*Tunis hakimiyyəti devrilmiş prezident bin Əli və onun qohumlarının xaricdəki gizli bank hesablarından 29 milyon dollar alıb*



Lent.az-ın xarici informasiya vasitələrinə istinadən məlumatına görə, bu məbləğin qəbzi BMT əməkdaşları tərəfindən indiki dövlət başçısı Münsif Marzukiyə təqdim edilib.

Tunis dövlətinə qaytarılan bu maliyyə vəsaitinin xeyli hissəsi keçmiş prezidentin həyat yoldaşının adına Livandakı bankda açılmış hesabındandır

## "MENSALAO" QANUN SXEMİNDƏ İŞTİRAKA GÖRƏ

*Braziliyanın federal polisi keçmiş prezident Luis İnasiu Lula da Silva ilə bağlı araşdırmaya başlayıb*



Lent.az-ın "BBC"-yə istinadən məlumatına görə, mənbə bildirib ki, bu, ölkə tarixində ilk hadisədir. Keçmiş dövlət başçısı "Mensalao" qanun sxemində iştirakda suçlanır. Həmin sxemə əsasən, siyasi dəstək qarşılığında ictimai fondlardan pul koalision partiyaların hesabına köçürülür. Lula da SİIva bu sxemdən xəbərsiz olduğunu bildirib.

Dəlilləri məhkəməyə təqdim etməsi üçün istintaqın 30 gün vaxtı var. Ancaq bu müddətin uzadılması üçün müstəntiqlərin məhkəməyə müraciət edəcəyi də istisna edilmir.

## PRODÜSSERƏ LOBBİÇİLİK ETMƏKDƏ SUÇLANIR

*Almaniyanın istintaq orqanı ölkənin keçmiş prezidenti Kristian Vulfu korrupsiyada ittiham edir*



Lent.az-ın xarici informasiya vasitələrinə istinadən məlumatına görə, ötən il Kristian Vulf barəsində yaranmış çoxsaylı qalmaqallı məsələlər ucbatından istefa vermişdi.

Vulfu daha çox Aşağı Saksoniyanın federal ərazi naziri işlədiyi illərdə bir alman kinoprodüsserə lobbiçilik etməkdə suçlayırlar.

Keçmiş prezident isə prodüssərə filmini çəkmək üçün vəsait tapmaqda yardım etdiyini və bu məsələdə qanunsuzluq görmədiyini vurğulayıb.

Keçmiş prezidentin cərimə ödəməklə işləri qaydasına qoyacağı bildirilirdi. Ancaq K.Vulf prokurorun bu təklifindən imtina edərək, nüfuzunu müdafiə etmək istədiyini bildirib.

# GALLUP POLL: DESIRE TO LEAVE FSU RANGES WIDELY ACROSS COUNTRIES

*Half of those who want to migrate are searching for a better living standard*

*April 4, 2013*
*by Neli Esipova and Anita Pugliese*

PRINCETON, NJ -- Fifteen percent of adults across 12 former Soviet Union (FSU) countries desire to migrate to another country permanently, according to Gallup data collected between 2010 and 2012. Desire varies within the region, from 40% in Armenia to 5% in Uzbekistan. Adults in Central Asian countries are generally less likely to want to migrate than those living in other areas within the larger region.

Ideally, if you had the opportunity, would you like to move permanently to another country, or would you prefer to continue hiring in this country?
Among those aged 15 and older in 12 former Soviet Union countries

| | % |
|---|---|
| Armenia | 40 |
| Moldova | 32 |
| Ukraine | 21 |
| Belarus | 17 |
| Kyrgyzstan | 16 |
| Russia | 14 |
| Azerbaijan | 14 |
| Georgia | 14 |
| Kazakhstan | 13 |
| Tajikistan | 11 |
| Turkmenistan | 6 |
| Uzbekistan | 5 |
| Average | 15 |

Based on rolling averages from surveys between 2010-2012

GALLUP

When Gallup asked potential migrants in 2011 and 2012 to identify the main reason they would like to move, the majority cited economic-related factors. Fifty-two percent of potential migrants in FSU countries say they want to improve their standard of living or live in a country with a better standard of living. Another 10% say they want to get a good job or cannot find a job in their own country. More than one in eight (13%) are thinking not of their own futures, but those of their children.

***Main Reasons for Desire to Move to another Country Permanently***

Among those aged 15 and older who would like to move

| | % |
|---|---|
| Improve standard of living | 52 |
| For your children's future | 13 |
| To get a good job/Cannot find job | 10 |
| Because of social benefits (retirement, medical benefits, etc.) | 4 |
| To be closer to family | 3 |
| To live in a country where human rights are protected | 3 |
| To live in a country with less crime | 1 |
| Because of environmental problems in your country | 1 |

| | |
|---|---|
| Other reason | 2 |
| Don't know/Refused | 12 |

Data collected 2011-2012

GALLUP

But 12% said they did not have an opinion on the reason they desire to move. Four percent or fewer potential migrants mentioned other reasons such as social benefits (namely retirement and medical benefits).

In contrast to the commonly held belief that reuniting families is one of the most important reasons for migration in the region, Gallup data show that it is not near the top of the list for residents in these 12 countries. Those in Central Asian countries are the most likely to cite wanting "to be close to family" as the main reason they would like to migrate, with the highest percentage in Kazakhstan, at 11%.

Potential migrants aged 50 and older are more likely than younger respondents across all 12 countries to want to move to be closer to family. In Central Asian countries, nearly one in four adults in this older age group say family is the main reason they desire to migrate.

***Top Five Reasons for Desire to Move to Another Country Permanently, by Age Group***

Among adults aged 15 and older in former Soviet Union countries who would like to move

| | 15-29 | 30-49 | 50 and older |
|---|---|---|---|
| | % | % | % |
| Improve standard of living | 56 | 51 | 49 |
| For your children's future | 10 | 17 | 13 |
| To get a good job/Cannot find job | 10 | 11 | 7 |
| Because of social benefits (retirement, medical benefits, etc.) | 3 | 3 | 9 |
| To be closer to family | 1 | 2 | 8 |

Data collected 2011-2012

**GALLUP**

Those aged 50 and older (9%) are more likely than younger adults (3%) to say social benefits are the main reason they want to move to another country. Young adults, on the other hand, are most likely to say improving their standard of living is the main reason they want to migrate, at 56%.

**Children's Future Top Motivator in Some Countries**

Adults in Turkmenistan (29%) and Kazakhstan (21%) are the most likely to cite their children's future as the main reason they want to migrate to another country. Far fewer in other countries offered this as a reason.

Women across all countries were more likely than men -- 17% vs. 10%, respectively -- to say they want to move for their children's future. And those who have children younger than age 15 in their household are more likely to cite this reason for wanting to migrate.

**Implications**

Leaders need to be cognizant of the factors that play an important role in people's decisions to leave their countries. In FSU countries, the main reasons behind people's desire to migrate are largely economic, but they are also motivated to move to provide better futures for their children. If countries fail to provide good jobs, many residents in the region may act on their desire to leave their country to find better employment and a better standard of living for themselves and their families.

For complete data sets or custom research from the more than 150 countries Gallup continually surveys, please contact us.

**Survey Methods**

Results are based on aggregated face-to-face interviews with 41,072 adults, aged 15 and older, in 12 countries from 2010 to 2012: Armenia, Azerbaijan, Belarus, Georgia, Kazakhstan, Kyrgyzstan, Moldova, Russia, Tajikistan, Turkmenistan, Ukraine, and Uzbekistan.

In 2011 and 2012, 4,519 survey respondents said they would like to move to another country permanently. These respondents were asked to indicate all reasons why they would like to move abroad, and then to choose the main reason among those mentioned. One can say with 95% confidence that the margin of sampling error for the total sample of 4,519 respondents is less than Â±2 percentage points. Margin of error for subgroups is larger.

Originally published on http*://www.gallup.com.*

## MƏSCİDİ-NƏBƏVİ DAHA GENİŞ OLACAQ

*Səudiyyə Ərəbistanının Mədinə şəhərindəki Məscidi-Nəbəvinin genişlənmə işlərinin 2 il ərzində tamamlanması nəzərdə tutulmuşdur*



Şəhərin infrastruktur yenilikləri və Məscidi Nəbəvinin genişləndirilməsi üçün hazırlanmış layihə 37,5 milyard dollara başa gələcəkdir.

Layihə çərçivəsində Məscidi-Nəbəvinin 1,6 milyon adamın ibadət etməsinə imkan yaradacaq şəkildə genişləndirilməsi nəzərdə tutulmuşdur.

Layihənin Kral Abdullah tərəfindən təsdiq edildiyi bildirilmişdir. Digər tərəfdən 2013-cü ildə İslam mədəniyyətinin paytaxtı elan edilmiş Mədinədə olan şahzadə Salman bin Əbdüləziz layihələri və Məscidi-Nəbəvinin genişləndirilməsi istiqamətində görülən işləri araşdırmışdır.

## DÜNYADA NƏ QƏDƏR MÜSƏLMAN VAR?

*Yer üzündə 7 milyard 68 milyon 607 min 554 insan yaşayır; Onlardan 1 milyard 757 milyondan çoxu müsəlmandır*

Müsəlmanlar dünyada öz mövqelərini möhkəmlətməyə davam edirlər. Planetin bütün bucaqlarında müsəlmanların sayının artması bunun göstəricisidir.

Milli.Az Salamnews-a istinadən İslam dininə sitayiş edənlərin sayı, həmçinin onların dünya ölkələri üzrə faizi ilə bağlı məlumatı sizlərə təqdim edir.

Əldə olunmuş rəqəmlərə görə, Yer üzündə 7 milyard 68 milyon 607 min 554 insan yaşayır. Bunlardan 1 milyard 757 milyon 292 min 623-ü müsəlmandır. Faiz hesablamalarına əsasən, praktiki olaraq planetdə yaşayan hər dörd insandan biri müsəlmandır (dəqiq rəqəm – 24,86%).

Regionlar üzrə müsəlmanlar bu cür bölünüb: ən çox müsəlman Asiyada yaşayır (1 milyard 179 milyon), sonra Afrika (518 milyondan çox), Avropa (təqribən 50 milyon), Şimali və Cənubi Amerika (10 milyondan çox), Avstraliya və Okeaniya (0,7 milyon).

Müsəlmanlar 39 ölkədə əhalinin böyük əksəriyyətini (80%-ni), 13 ölkədə isə əksəriyyət (50-79%) təşkil edir. 15 ölkədə müsəlmanlar mühüm rol oynayırlar (20-49%). İslam dininə sitaiş edənlər 33 dövlətdə azlıq şəklində yaşayırlar (5-19%). Dünyanın 40 ölkəsində müsəlmanlar azlıq təşkil edir (1,0-4,9%), 57 dövlətdə isə ayrı-ayrı islam icmaları formasında təmsil olunur (1%-dən az).

Müsəlmanların mütləq sayı üzrə ölkələrin qabaqcıl onluğu belədir: İndoneziya – 221 milyon; Hindistan – 177 milyon; Pakistan – 176 milyon; Banqladeş – 144 milyondan çox; Nigeriya – 88 milyondan çox; Misir - 79 milyondan çox; İran -77 milyondan çox;

Türkiyə - 74 milyondan çox; Efiopiya - 46 milyondan çox; Əlcəzair - 36 milyondan çox;



Sudan, Çin, İraq, Mərakeş, Əfqanıstan, Səudiyyə Ərəbistanı, Özbəkistan, Yəmən və Tanzaniya kimi ölkələrin hər birində 20-30 milyon müsəlman yaşayır. Ölkədə yaşayan müsəlmanların ümumi sayına görə ( 18 milyon 500 min insan) dünyada 21-ci yerdə Rusiya dayanır. Bildirək ki, müsəlmanların sayı olduqca sürətlə artır, buna Rusiyanın ənənəvi müsəlman ailələri arasında yüksək doğum göstəricisi və İslam ölkələri (Orta Asiya, Qazaxıstan və Azərbaycan) nümayəndələrinin emiqrasiyası səbəb olur.

Əhalinin 2010-cu ildə aparılmış siyahıyalınmaya əsasən, həmin vaxt Rusiyada təqribən 15 milyon müsəlman yaşayıb. Təbii artım və islam ölkələrindən olan qeyri-qanuni miqrantların sayının artması (3 milyondan 5 milyonadək) nəticəsində hazırda Rusiyanın müsəlman əhalisinin sayı müxtəlif hesablamalara görə, 18 milyondan 21 milyon nəfərədəkdir.

## MÜHÜM MÖVZUYA HƏSR OLUNMUŞ DƏRSLİK

İnsan resurslarının idarə edilməsi Azərbaycanda yeni sahə olduğu üçün bu mövzuda yazılan kitablar çox əhəmiyyətlidir. Bu sahəyə marağın getdikcə artması da Azərbaycan dilində bu tipli kitabların nəşrinə zəmin yaradır. Belə kitablardan biri dərs vəsaiti kimi çap olunmuş "İnsan resurslarının idarə edilməsi" kitabıdır.* Kitabın müəllifləri iqtisad elmləri üzrə fəlsəfə doktorları – dosent Teyyub Əliyev, Şəms Əliyeva və Ramil Əliyevdir.

İqtisadi artımın əsas hərəkətverici qüvvəsi hesab olunan insan resurslarının idarə olunması bu kitabda daha çox iqtisadiyyat istiqamətində araşdırılır və izah edilir. Ön sözdə deyildiyi kimi, kitabda insan resurslarının mahiyyəti və məzmunu, insan resurslarından istifadənin xüsusiyyətləri, insan resurslarının idarə edilməsi strategiyası, əməyin təşkilinin səviyyəsinin insan resurslarından istifadəyə təsirinin xüsusiyyətləri, əməyin motivləşdirilməsi və insan resurslarından istifadə problemləri, əməyin ödənilməsinin təşkili və idarə edilməsi, əmək kollektivində münaqişə situasıyaları və onların idarə edilməsi məsələləri şərh olunmuşdur. Kitabda, həmçinin, "əhali" anlayışı, demoqrafik və iqtisadi proseslərin qarşılıqlı əlaqəsi, əmək ehtiyatları, iş qüvvəsi, əmək qabiliyyəti, məşğulluq və işsizlik problemləri haqqında da geniş məlumat verilmişdir. Müəlliflər kitabda əməyin elmi təşkili (ƏET) anlayışı, tarixi, istiqamətləri və səviyyəsi haqqında geniş məlumat vermiş və ƏET - nin səviyyəsini öyrənmək üçün lazımi düsturlar təklif etmişlər.

Hər bit təşkilat, şirkət və ya müəssisələrin əsas bazasını insan resursları təşkil edir və işçilər arasında hər hansı bir kiçik və ya böyük anlaşılmazlıq və ya münaqişələrin baş verməsi mümkündür. Kitabın ayrıca bir fəsli bütünlüklə əmək kollektivində münaqişə situasiyaları və onların idarə edilməsinə həsr olunmuşdur. Müəlliflər münaqişənin mahiyyəti, növləri, onların meydana çıxmasına təsir edən amillər, müəssisədaxili münaqişələrin baş vermə səbəbləri, münaqişələrin həll edilməsi üçün istifadə edilən metodlar və onların qiymətləndirilməsi haqqında geniş məlumat verirlər. Onların fikrincə, münaqişə - insanların mövcudluq faktıdır. Yaranmış münaqişələrin səbəbləri müxtəlif ola bilər, amma əvvəlcə onların baş vermə səbəbləri təhlil edilməli, bu səbəblər başa düşülməli və onların tezliklə həll edilməsi üçün lazımi tədbirlər görülməlidir. Bir çox firmalar hətta əməkdaşlarla əlaqə üzrə menecer vəzifəsini də öz ştat cədvəllərinə daxil edirlər. Müəlliflər həmçinin qeyd edirlər ki, bəzi şirkətlər süni münaqişələr yaradırlar ki, təşkilatı "hərəkətə" gətirsinlər. Lakin yaradılmış münaqişələr nəzarət altında saxlanılmalı, lazım olduqda isə həll edilməli və böyüməsinə imkan verilməməlidir. Lakin əgər müəlliflər Azərbaycanda olan hər hansı bir şirkətin və ya şirkətlərin işçiləri arasında baş verən münaqişələri və onların insan resursları departamentinin bu münaqişələri necə həll etdiklərini nümunə kimi göstərsəydilər, oxuculara nəzəri biliklərlə yanaşı praktiki məlumatlar da vermiş olardılar.




Kitabda müxtəlif ağ-qara sxemlərdən istifadə olunmuşdur. Bu cür sxemlərin olması göz yaddaşı olan insanlar üçün çox vacibdir. Lakin müxtəlif rənglərdən və şəkillərdən istifadə edilsəydi, kitab daha maraqlı olardı.

Kitabın zəif cəhətlərindən biri ingilis dilli ədəbiyyatdan az istifadə olunmasıdır. Kitabda rus və Azərbaycanın görkəmli iqtisadçı alimlərinin yazdıqları ədəbiyyatdan daha çox istifadə olunmuş və onlarda insan resurslarının idarə edilməsi sahəsində toplanmış təcrübə araşdırılmış və ümumiləşdirilmişdır. İnsan resursları mövzusunun daha çox tədqiq olunduğu Avropa təcrübəsindən və ədəbiyyatından isə istifadə edilməmişdir.

Yuxarıda qeyd etdiklərimi ümumiləşdirərək sonda deyə bilərəm ki, kitab ali məktəblərin bakalavr pilləsində təhsil alan tələbələr üçün mühüm vəsaitdir. Bu kitabdan həmçinin müəllimlər, doktorantura tələbələri, hər hansı bir təşkilatın mütəxəssisləri və ya insan resursları haqqında məlumat əldə etmək istəyən hər bir şəxs istifadə edə bilər.

**Rima Məmmədova,**
**Xəzər Universitetinin doktorantı**

**** T. Q. Əliyev, Ş. T. Əliyeva, R. T. Əliyev. "İnsan resurslarının idarə edilməsi". Bakı: Azərbaycan Dövlət Neft Akademiyası, 2012, 303 səh.***

# ŞOKOLAD

*(hekayə)*

**Orxan Kamal**
*(1914-1970)*
*Türkiyə*



Şirniyyatçının böyük vitrini qarşısında dayanmışdılar. Vitrində qutu-qutu şəkərlər, şirniyyatlar, şokoladlar düzülmüşdü.

Şokoladlara baxırdılar. Ortadakı toppuş oğlanın sağında bacısı, solunda qatıq satanın qızı dayanmışdı. Qatıq satanın qızı oğlanın bacısı yaşda olardı. Bir az əvvəl toppuş oğlanın bacısı onu çəkə-çəkə bərbərə aparmışdı. Bərbərin böyük güzgüsü, mavi muncuqlu qəfəsi, qəfəsin içində sapsarı quşu vardı.

Atasının dostu idi. Dodağının üstündə nazik, qapqara bığı vardı. Qarşıdakı evin yekə döşlü qızına baxıb gülərdi. Yekə döşlü qız da gülərdi, gülüşərdilər. Arada bir-birlərinə əl edərdilər. Toppuş oğlan da görmüşdü. Sarı quşu da görmüşdü. Barmaq boyda idi. Bərbərin maşınkası arada başını incitməsə idi… Elə pis incidirdi ki, qalxıb qaçmaq, küçədən dükanı daşlamaq keçirdi ürəyindən. Buna görə heç sevmirdi bərbərə gəlməyi. Bacısını itələməsi, gəlmək istəməməsi də buna görə idi. Bərbər işini qurtarandan sonra bacısı "Pullarımızı üst-üstə qoyub 50 qəpiklik şokolad alarıq"deməsəydi, o bilir nə edərdi.

Şirniyyatçının vitrininin qarşısında hər şey yaddan çıxmışdı, qəfəs də, içindəki sarı quş da, güzgü də… İndi şokoladlar var idi, məhz şokoladlar. Günəşdə parıldayan qırmızı, bənövşəyi, sarı, mavi şokoladlar… Qırmızı, bənövşəyi, sarı, mavi kağızlarla bəzənmiş şokoladlar. Bacı-qardaş da, qatıq satanın qızı da par-par parıldayan qırmızı, bənövşəyi, sarı və mavilərin içində idilər. Ya da mavilər, sarılar, bənövşəyilər, qırmızılar yarpaq kimi uçuşurdu içlərində.

Bacı-qardaş şokoladın dadını bilirdilər. Bir dəfə xalaları Sarıyerdən gətirmişdi. Xalasının qara paltosu vardı, üzündə də böyük bir ət xalı var idi, gözləri sürməli idi. Pul da verirdi arada. Qoz halvası da, yumru pambıq halvası da gətirirdi Emiqandan. Saqqalı uzanmış atası da yağışlı gecələrin birində səfərdən qayıdanda qoz halvası gətirmişdi. Daha çox uzanmış, tozlu saqqalına əl gəzdirib söyərdi: "Eşşəklər, namussuzlar, dəyyuslar!"

Amma şokolad pambıq halvasından da, qoz halvasından da dadlı idi. Qatıq satanın qızı da bunu bilirdimi? Bildi, bilmədi… başı keçəl qırxılan oğlanın cibində iyirmi, bacısında isə otuz qəpik var idi. Üst-üstə qoysaydılar…

- Bacı!

Çirkli saçlarında qırmızı bant olan bacısı:

- Nə olub?

Qatıq satanın qızı da baxırdı.

- Heç.

Bu qız, qatıq satanın bu pis qızı da burda niyə dayanmışdı? Özünün iyirmi qəpiyi vardı, bacısının da otuz. Amma qatıq satanın qızı!

Bacısı şokoladın qoz halvasından da, pambıq halvasından da dadlı olduğunu bilirdi. Alardılar, bölüşərdilər, yeyə-yeyə gedərdilər evə, amma bu pis qız… Qatıq satanın qızı… Həm pulu yoxdu, həm də çıxıb getmək bilmirdi. "Get" desəydilər, deyəcəkdi "niyə?" "Şokolad alacağıq" desəydilər, "mənə nə" deyəcəkdi. Alsalar səfeh-səfeh baxacaqdı. Ona

da versəydilər, özlərinə bir şey qalmayacaqdı. Verməsələr də... Ataları "kimsəni umsundurmaq günahdı" deyərdi.. Cəhənnəm var. Cəhənnəmdə qır qazanı var.

- Bacı!

- Nə olub?

- Bu şokoladlar xalamın gətirdiyindəndi?

- Xeyr.

- Xalamın gətirdikləri daha dadlı deyilmi?

- Təbii.

Qatıq satanın qızı:

- Bütün şokoladlar bir-birinə bənzəyir!

İkisi də birdən:

- Nə bilirsən?

- Siz nə bilirsiniz bəs?

Bizə xalamız Sarıyerdən gətirir.

- Mənə də gətirir.

- Sənin xalan var?

- Sizin var?

- Var.

- Mənim də var.

- Bizə də hər dəfə gələndə gətirir!

- Mənə də.

- Bizə pambıq halvası da, qoz halvası da gətirir.

- Mənə də.

- Hardan gətirir?

- Sizə hardan gətirir?

- Sən denən görüm hardan gətirdiyini!

- Niyə deyim?

- Biz niyə deyək ki? Bizim atamız yük maşını sürür, dünyanı gəzir!

- Mənim atam da qatıq satandı. Binalara da qatıq satır.

Oğlan bacısına tərəf döndü:

- Bacı!

- Nədi?

- Xalası şokolad gətirirsə, getsin yesin də. Qatıq satanın qızı:

- Getməyəcəyəm!

- Niyə?

- Siz niyə getmirsiniz?

- Bizdən sənə nə?

- Yaxşı, bəs onda məndən sizə nə?

- Biz axşama qədər gözləyəcəyik.

- Mən də gözləyəcəyəm.

- Bura sənindi?

- Bəs sizindi?

Qız qardaşına qışqırdı:

- Sus! Biz onun kimi deyilik!

- Əslində, mən sizin kimi deyiləm!

- Nə?

- Sizə nə?

Oğlan:

- Kişisən denən – oğlan dedi.

- Deyərəm.

- Deyərəm.

- De görək!

- Sizdən qorxacağam?

- Biz səndən qorxacağıq?

Küçənin kələ-kötür yolu ilə bir "De soto" (*maşın markası* –**red.)** keçirdi.

- Bacı!

- Nədi?

- Atam bu mavi maşını da sürə bilər, hə?

- Əlbəttə, sürər.

Qatıq satanın qızı eşitdi, amma başa düşmədi. Xalası yox idi, amma xalasının olmasını istəyirdi. Xalası olsaydı, Sarıyerdən şokolad, qoz halvası, Emirqandan pambıq halvası gətirərdi. Ya da atası sürücü olsaydı... Şokalad dadlı olurmu görəsən?

- Nə olub?

- Biz istəsək şokolad...

- Sus!

- Ala bilərik, deyilmi?

- Sus, danışma, dedim sənə!

- Amma bilirəm almarıq. Cəhənnəmdə qır qazanları var.

- Danışma, demədim sənə?

Qatıq satanın qızı güldü. Bacısının bantı yenə saraldı.

- Niyə gülürsən?

- Sənə nə?

Oğlan dedi:

- Kişisənsə de.

- Səndən qorxacağam? Harda gördün cəhənnəmi?

- Mən görmədim ki...

- Biz də görmədik.

- Bəs hardan bilirsən orda qır qazanlarının olduğunu?

Bacı-qardaş bir-birlərinə baxdılar. Bacısı:

- Atam dedi. Atam bilmir ki?

- O bilər. Siz ki, bilmirsiz!

- Bacı!

- Nə var?

- İstəsək, şokolad ala biləcəyimizi sübut edək buna?

Qatıq satanın qızı sarı tənəkə sırğalarını oynadaraq, meydan oxudu:.

- Göstərin görüm!

- Göstərək, bacı?

- Göstər də… Guya pulları var …

- Yoxdu?

- Var?

- Baaax!

Qız dodağını büzdü:

- Mənim atam daha çox verir…

Bacısı da pulunu göstərdi. Qatıq satanın qızı yenə dodağını büzdü:

- İkinizinkindən də çox pul verir, heç xərcləməyə yer tapmıram!

Oğlanın bacısı az qala ağlayacaqdı:

- Bir dənə əlli qəpiklik şokolad al görüm!

- İstəsəm alaram, amma almıram.

- Biz alarıq - oğlan dilləndi.

- Ala bilirsizsə, alın görüm.

- Ala bilmərik?

- Alın da!

Oğlan:

- Axmaq!

"Axmaq " qıpqırmızı oldu:

- Axmaq sizin kimi olur!

Bacısının üzü bantı kimi qızardı:

- Məni qarışdırma!

- Qardaşın mənə niyə dedi bəs?

- Bizim tərbiyəmiz sənin kimilərlə dil-dil ötməyə icazə vermir.

- Əslində mənim tərbiyəm icazə vermir.

-Sus, sus...

- Bacı, bizim pulumuz var axı, niyə susaq? Dükana gəldilər. Qatıq satanın qızı qaldı. Çirkli saçları biz-biz olmuşdu. İçki düşkünü, qumarbaz atası və dörd bacısından başqa heç kəsi yox idi. Bacıları hər səhər tütün fabrikinin fiti vurulanda işə gedər, əlləri boş qayıdardılar. Anası sağ ikən üzüm, əncir, pendir, zeytun torbaları ilə qayıdardı. Yemək bişirir, gecə yarılarına qədər paltar yuyar, qızlarını oturdub saçlarını hörər, bant bağlayardı. Anası sağ olanda bacıları fabrikdə işləməzdilər. “Klas-klas” oynayırdılar, topla oynayırdılar. Hətta atası da o vaxt bu qədər içməzdi.

Qırmızı kağızlı şokoladla çıxdılar dükandan. Əvvəl qırmızı rəngli kağızı cırıb atdılar, sonra gümüşü kağızı. Daha sonra da bölüşdürüb yeməyə başladılar.

Görəsən. çox dadlıdı? Sonra həyəcanla

- Onu mənə pulsuz da versələr, yemərəm-dedi.

Görəsən, eşitdilər? Eşitdilərsə, nə dedilər? Onların yeməklərini görüb tamarzı qaldığını bildirməmək üçün gözlərini yumdu. Yumulu gözlərinin qabağına iştaha ilə çeynənən şokolad gəldi. Gözlərini açdı, vitrinə baxdı. Vitrində qırmızı, yaşıl, bənövşəyi, sarı, çəhrayı kağızlı şokoladlar düzülmüşdü. Gözünü yumdu; bərbərə aparılan, ortaq şokolad alınan, alınıb bölüşülən, qardaş, mavi maşını sürə bilən ata. Sariyerdən gələn şokalad, Emirqandan pambıq halvası, qoz halvası gətirən xala. Gözlərini açdı: yan-yana gedirdilər. Yenə gözlərini yumdu, açdı, yumdu. Gözlərini ən son açanda onları qarşıdakı küçənin döngəsindən keçən gördü. Yenə gözlərini yumdu, sonra açdı, yox idilər artıq. Küçə ikisini də udmuşdu. Getmək istəyirdi ki, səkinin dibində qırmızı, parıldayan bir kağız, bükülmüş bir gümüşü kağız gördü. Ətrafına göz gəzdirdi. Kiminsə onu görüb, “qaraçı” zənn edəcəyindən qorxurdu.

Bir simit satan gəlib keçdi.

Evlərə, evlərin pəncərələrinə baxdı.

Pəncərələrdə tül pərdələr asılmışdı.

Əyildi, büzüşmüş gümüşü kağızı götürdü.

Yenə də bir simit satan gəlib keçdi.

Əlində tutduğu kağızı top kimi atıb tutdu, atıb tutdu. Gümüşü kağızı atıb tuta-tuta bir neçə küçə keçib getdi. Büzüşmüş gümüşü kağız topasını açdı və şokolad qırıntılarını yalamağa başladı.

*Azərbaycan dilinə uyğunlaşdıran:*

**Elnarə Ağaoğlu**

## BÖYÜK BRİTANİYA ŞAHZADƏSİ QURANİ- KƏRİMİ ÖYRƏNİR

*Böyük Britaniya taxt-tacının varisi Şahzadə Çarlz ərəb dilini öyrənməyə başlayıb*



Bu barədə ictimaiyyətə "Daily Mail" qəzeti məlumat yayıb. Qəzetin məlumatına görə, Şahzadə Çarlzda ərəb dilinə maraq Qətərdə səfərdə olarkən yaranıb. Uels şahzadəsi ərəb dilini öyrəndikdən sonra müqəddəs Qurani-Kərim kitabı ilə də dərindən tanış olmaq fikrindədir.

İslam və Orta Şərq mədəniyyətinə daim heyran olduğunu söyləyən Şahzadə Çarlz hazırda müşaviri vasitəsilə ərəb dilindən 6 ay dərs aldığını söyləyib.

## YUNANISTANDA MƏSCİDLƏRİN SAYI ARTACAQ

*Məscid olmayan Avropa şəhərində birdən-birə 10-15 məbəd tikiləcək*

Afinanın mərkəzi məscidinin tikintisi şəhərin hər rayonunda bir məscidin tikintisi üçün yol açacaq. Milli.Az Rusiya mətbuatına istinadən xəbər verir ki, bu barədə Afina meri Yorqos Makinis şəhər şurasındakı çıxışında bildirib. Onun sözlərinə görə, şəhərdə daha 10-15 məscid tikilə bilər.

Qeyd edək ki, Afina yeganə Avropa şəhəridir ki, orada bir dənə də olsa, məscid yoxdur. Martın əvvəlində ölkənin baş naziri Antonis Samaras məscid tikintisinin həyata keçirilməsi ilə bağlı müsabiqə elan etmişdir.

## AMERİKALI MƏŞHUR MÜĞƏNNİ MÜSƏLMAN OLDU

*Son günlər Maykl Ceksonun bacısı Canet Ceksonun adı ABŞ mətbuatının gündəmindən düşmür*



AbŞ mətbuatının məlumatına görə, müğənni bundan sonra albom yazdırmamaq, filmlərdə çəkilməmək və ümumiyyətlə şou industriyasından uzaqlaşmaq qərarına gəlib. Müğənninin dostları isə deyirlər ki, Canet Yaxın Şərqə köçüb və İslam dinini qəbul edib. Onun müsəlmanlığı qəbul etməsində qətərli milyarder əri Vissam Əl Mana mühüm rol oynayıb.

## RONALDOYA QURAN HƏDİYYƏ EDİLDİ

“Real Madrid”in ulduz futbolçusu Kristiano Ronaldoya dünyanın ən gözəl hədiyyəsi verilib. Portuqaliyalı oyunçuya Qurani-Kərim hədiyyə edilib. Səudiyyə Ərəbistanında öndə gedən telekommunikasiya şirkətlərindən birinin reklam təklifini qəbul edən futbolçunun hədiyyəsi elə Ərəbistanda da təqdim olunub. Xüsusi qutunun içərisində hazırlanan Qurani-Kərim təşəkkür əlaməti olaraq, Ronaldoya verilib. Ronaldo isə buna cavab olaraq “bunu evimin ən gözəl yerində saxlayacağam” deyib.

## HOLLANDİYADAN MÜSƏLMANLARA TV-DƏ VƏ RADİODA YAYIM HAQQI VERİLDİ

İslamofobiyanın olduğu bir zamanda belə bir addımın atılması müsəlmanlarla münasibətlərin normallaşdırılması istinqamətində atılan addım kimi sayılır.

İslamazeri.az-ın france24-ə istinadən verdiyi məlumata görə, Hollandiyada müsəlmanlara NTR kanalında efir vaxtı verilib. Belə ki, Hollandiya Yayım Komissiyasının təsdiqindən sonra, müsəlmanlara hər həftə 1 saat 12 dəqiqə televiziya, 3 saat 36 dəqiqə isə radioda efir vaxtı verilib.

# SUPERSTITIONS IN AZERBAIJAN AS A SIGN OF THE NATION'S HISTORICAL REMNANTS

*Jamala I. Mammadova*
*Khazar University Major Program Coordinator*
*English language and Literature Department*



Each nation has its own cultural, inherited roots bound to its long traditional history. The history of each nation is reflected in its lifestyle, language, and beliefs. Situated in the South Caucasus at the crossroads between Asia and Europe, Azerbaijan is one of the most ancient countries in the world with its strong cultural characteristics. The land of Gobustan, which is situated in Azerbaijan, was settled in the 8$^{th}$ millennium BC (Caferzade, 1973).

Azerbaijanis are a Turkic nation. At the same time, Azerbaijan is a multilingual country. Azerbaijan is home to several ethnic minorities including Avars, Tats, Lezgins, Kurds, Jews, Russians, and Tatars. The groups mentioned have built an intercultural relationship with the Azerbaijani nation. Intercultural marriages take place, and this in turn results in the exchange of cultures leading to the respectful harmony within the population of the country.

From the standpoint of national beliefs and sayings, the Azerbaijani nation has a seasoned culture that has been shaped and affirmed through centuries. Some of the sayings and beliefs have common meanings and equivalents in other nations' beliefs. Some beliefs and sayings have been shaped due to the historical events and processes that the nation has experienced. This article is focused on Azerbaijani superstitions characteristic to Azerbaijani cultural heritage.

In general, superstitions are considered “tested beliefs” of each nation. By “*tested”* we mean the true beliefs evidenced by numerous situations over centuries which have gradually led to the formation of national beliefs.

In Azerbaijan, like in any other nation, superstitions can be divided into two groups: superstitions related to good things as signs of happiness/luck, and superstitions related to bad things as signs of sorrow/bad luck.

## EXAMPLES OF AZERBAIJANI SUPERSTITIONS AS A SIGN OF HAPPINESS AND GOOD LUCK:

1. When you get up from the right side of the bed, that day will be lucky;
2. If you drop bread out of your hand, you will be glad about something;
3. A man with a full basket in front of you means that the day is lucky;
4. If you see a horse in your dream you are lucky;
5. A girl with birthmarks will be happy;
6. A daughter resembling her father will be happy;
7. If you throw a bowl of water when you see someone off, he/she will return safe and sound;
8. If you eat everything from your plate and clean it with bread, your future spouse will be handsome/beautiful;
9. If you have seen a nightmare, first tell it to running water. Water will take all its bad aspects away;
10. When water spills, it will bring clarity;
11. A horseshoe over the door brings good luck.

In the next stage we intend to propose some examples of common superstitions as a sign of evil in Azerbaijan.

### SUPERSTITIONS REGARDING SORROW/BAD LUCK

1. If the mirror that was given as a traditional wedding gift is broken, something bad will happen;
2. Do not look at a mirror in the dark, you will go mad;
3. A man with an empty basket on your way means that the day will not be lucky;
4. Do not cry at twilight;
5. Do not sweep the house in the evening, or something bad will happen;
6. If a broom touches you, you will be blamed for something;
7. Do not cut your nails in the evening, or your may shorten your life;
8. When salt or pepper is spilled, a quarrel will take place unless you put something sweet on the spill;
9. If a person scratches the bottom of a pot, it will snow on the day of his/her wedding;
10. Whoever sits at the corner of a table will get married late;
11. When you wipe a table with paper, the household will become poor;
12. A person with lots of marks on his/her face has a lot of enemies;
13. A cat crossing your path is bad luck that day;
14. Do not lend salt or bread, as it will make the household poor;
15. Do not put out your garbage at night, or the household will become poor;
16. Do not laugh too much, or it will bring you many tears afterwards;
17. Do not shake hands across the threshold of a doorway;
18. It's not good to veil an empty cradle, because the child may die;
19. You shouldn't mend your clothes while wearing them, or something bad will happen;
20. Do not keep a broken dish at home;
21. Do not leave piece of your bread uneaten after finishing your meal; it will bring you misfortune.

In Azerbaijani culture bread, water, and land are considered to be sacred. Culture has a special and indispensable role in the building of national superstitions.

When a piece of bread falls to the floor, people pick it up and kiss it, touching it to their eyes. The culture of Azerbaijan highly appreciates the holiness of bread. Children learn it from their childhood and obey it as a sacred rule. It passes from generation to generation on the basis of national and cultural beliefs. It may have also some reasons relating to the history of the nation. During wartime, people experienced a very hard period. Bread was inaccessible for them for a long time. The absence of bread, fatalities of world wars, and the ongoing Nagorno-Karabakh conflict resulted in deprivations. The Nagorno-Karabakh conflict destroyed over one million Azerbaijanis' lives (Hörner *et al.*, 2007: 77). It has affected the beliefs of the people and nation. In conclusion, superstitions in Azerbaijan have deep roots in the history, culture, and national endurance of the nation.

Superstitions in Azerbaijan have power to affect business, family life, and daily life as it is seen in the above-mentioned samples. These superstitions that emerged in the nation are mainly regarded as a portent of good luck or evil. Some of the superstitions in Azerbaijani culture have the meaning of neither evil nor luck, but rather information that you are not aware of. For example,

1. If your face is red and burning, it means somebody is talking about you;
2. If your ear is ringing, it means someone is talking about your words;
3. If you forget your piece of bread and take a new slice of bread while you are eating, it means that someone close to you is hungry now;
4. If a fork is dropped, it means that a guest will come;
5. If a knife is dropped, it means a male guest will come.

In Azerbaijan, we have two-sided superstitions; those superstitions are the combination of both evil and good in itself. For example:

1. When your right hand itches you will have luck; if your left hand itches you'll lose money.
2. If you see a man with an empty basket, that day will be unlucky, but a man with a full basket means that day will be lucky;
3. When you get up from the right side of the bed, that day will be lucky, but when you get up from the left side of the bed, that day will be unlucky.

Many superstitions actually arose out of historically tested beliefs as mentioned earlier. Some scholars link the emergence of superstitions to a time when there was little knowledge or understanding of the world, nature and the universe (Deborah, 2008).

Other scholars consider superstitions to have been part of a broader system of ideas and beliefs of each nation in the form of isolated elements that moved and are moving from one generation to another (Jahoda, 1970).

Superstitions are passed from generation to generation, strengthening cultural beliefs in younger generations. Some members of the younger generation think that superstitions do not prove themselves true in modern life. The remainder of the younger generation believes that superstitions work; they follow the rules of national beliefs and superstitions in their daily lives.

Every nation has its superstitions. Here are some foreign superstitions: "If you kill the first adder in the spring, you will triumph over your enemies;" "break a salted cake of bran and give it to a dog when the fit comes on, by which means the malady is supposed to be transferred to the dog;" "put an agate on the head of a person suffering from fever, and fever will depart;" "if women carry an acorn they will never grow old" (Radford &Radford, 2004:11-14). There is also an Indian cultural superstition that "sweeping the house at night is not good" (Fallon, 1998). As we have seen, there is an Azerbaijani equivalent of the same superstition.

"A horseshoe over the door brings luck" and "If you drop a table knife expect a male visitor, if you drop a fork a female visitor" are British superstitions which have near equivalents in Azerbaijani superstitions. The superstition "breaking a mirror will bring bad luck" exists in Azerbaijani, American and British cultures (Knowledge Galaxy, 2000; Woodland, 2012; Nabiyev, 1986). Moreover, in the British culture, "meeting a black cat is a sign of luckiness." In Azerbaijan, the same superstition has the opposite meaning, leading to unluckiness.

Superstitions are a form of deep belief explaining that one event leads to another event and therefore warns or pre-informs people about the future (Vyse, 2000).

Like any nation, the Azerbaijani nation has national beliefs based on cultural and historical issues. Some of the beliefs are active in the country, while some of them are considered old and disproven in modern life.

Superstitions have a deep history in the nation. The Azerbaijani people preserve their national heritage of superstition collections as one of the historical characteristics of the nation. Superstitions survive in the daily practice and daily life of Azerbaijanis. In some cases, superstitions help people to keep their national identity. It is because of the strict national beliefs that the nation still follows its historically true superstitions, keeping them as a sign of the nation's age and cultural heritage.

Superstitions reflect historical events concerning each nation and indicate the historical period that the nation has passed through. Superstitions can be as old as a nation itself.

To summarize, in this article it is shown that superstitions differ from nation to nation. Superstitions are shaped on the basis of each nation's historical past. History might serve to form similar or distinctly different beliefs based on circumstances.

In Azerbaijan, superstitions are older than the religion. Nevertheless, the interrelationship between religion and superstition is one topic that needs further investigation.

**References**


Deborah, M. (2008). *Superstitions: 1,013 of the world's wackiest myths, fables,and old wives' tales.* Reader's Digest Association.

Caferzade, I. (1973). Gobustan. Azerbaijan SSSR. Institute of History.

Fallon, S. (1998). *A dictionary of Hindustani proverbs.* Asian Educational Service.

Jahoda, G. (1970). The Psychology of Superstition. Penguin.

Hörner, W., Döbert, H., von Koop,B. and Mitter,W. (2007). The education system of Europe. The Netherlands: Springer.

Knowledge Galaxy. (2000). Common Superstitions. Retrieved, on April 9th,2013, From: *http://www.knowledgegalaxy.net/common_superstitions/common_superstitions.html*

Nabiyev, A.(1986). Music, beliefs and greetings (Nəğmələr, inanclar, alqışlar). Baku: Yazici.

Radford, E. and Radford, M. (2004). Encyclopedia of Superstitions 1949. Kessimger Publishing.

Vyse, S. (2000). *Believing in Magic: the psychology of superstition.* England:OUP.

Woodland Junior School.(2012). British Life and Culture. Retrieved on April 9th, 2013, from:

*http://resources.woodlandsjunior.kent.sch.uk/customs/questions/superstitions.htm*

## QADIN, AİLƏ, KARYERA VƏ LİDERLİK İSTƏYİ

*Qadının ailə həyatı və karyera arasında seçimi bu günlər Amerikada yenə də geniş müzakirə obyektidir*

Bu dəfə mövzunu gündəmə Facebook şirkətinin əməliyyatlar üzrə direktoru, 43 yaşlı işgüzar qadın **Şeril Sendberq** gətirib. Xanım Sendberq "Qadın, iş və liderlik istəyi" ("Lean In: Women, Work and the Will to Lead") adlı yeni kitabında qadınların ailə və karyera arasında seçimləri və bu seçimləri edərkən qarşılaşdıqları problemləri izah edir.

Amerikada bir neçə ay bundan əvvəl Prinston universitetinin professoru **Enn Mari Sloter**in "Qadınlar nə üçün hər şeyə malik ola bilmir" adlı məqaləsi cəmiyyətdə böyük əks-səda doğurmuşdu. Dövlət Departamentində yüksək vəzifə tutan xanım Sloter ailəsi və övladlarına kifayət qədər vaxt ayıra bilmək üçün karyerasından imtina edərək Prinston universitetində akademik fəaliyyətə qayıtmışdı. Məqaləsində xanım Sloterin gətirdiyi əsas müddəalardan biri o idi ki, övladı olub işləyən qadın-analar yüksək vəzifələr tutub, karyera qura bilirsə, bunlar ya qeyri-adi qadınlardır, ya böyük maliyyəyə malikdir, ya da öz bizneslərinin sahibidir. Professor Sloter qadınların karyeralarının ən mühüm bir dövründə ailə və uşaqların xeyrinə qərar verməli olduğunu yazıb və iş və ailə arasında balans yaratmağın əslində çox vaxt mümkün olmadığını izah edib.

Müəllif geniş müzakirələr doğurmuş məqaləsində Amerika cəmiyyətində karyera və iş mədəniyyətinə dair mövcud mövqeyə görə qadının bu dilemmanı həll edə bilməkdə çətinlik çəkdiyini göstərib. Qadının bu dilemmanı həll edə bilməsində cəmiyyətdəki stereotiplər Facebook şirkətinin əməliyyatlar üzrə direktoru Şeril Sendberqin yeni kitabında təhlil edilir. Xanım Sendberq qadınların nəyə görə yüksələn xətlə karyera qura bilməməsinin səbəblərini araşdıraraq, öz təcrübəsindən misallar gətirir.

Şeril Sendberq "Forbes" jurnalının ən zəngin qadınlar siyahısında onuncu yeri tutur, ailəlidir, iki övlad anasıdır və gözəl karyera qura bilib. Lakin buna baxmayaraq, o, qadınların geniş imkanlara malik olduğu ABŞ-da belə onların hakimiyyət strukturlarında yüksək vəzifələrdə çox az təmsil olunması məsələsi ətrafında ciddi polemika aparır. Şeril Sendberq kitabında statistik məlumatlar gətirir. 2012-ci ildə ABŞ Senatına ilk dəfə olaraq 20 qadın seçilib. Senatın 100 üzvündən 20-nin qadın olması, ya da qadınların 18 faiz təmsil olunması mühüm bir inkişaf kimi qarşılansa da, qadınlar bunun kifayət olmadığını deyir. Dünyaya baxdıqda da vəziyyət eynidir. Dünyada 192 dövlət başçısından yalnız 17-i qadındır.

„Forbes" jurnalının 500 nüfuzlu iş adamı arasında cəmi 21 qadın var. İcraçı direktorların isə yalnız 14 faizi qadındır. Bütün bunlar qadınların universitet məzunlarının 57, magistraturanı bitirmiş tələbələrin isə



63 fazini təşkil etdiyi bir fonda baş verir.

Sendberq qadınların ailə və iş arasında balans yaratmasına yer versə də, kitabın əsas hissəsini qadınların ümumi stereotiplərdən yaxa qurtarması üçün ata biləcəyi addımlardan bəhs edir. Onun gəldiyi əsas nəticə ondan ibarətdir ki, dünya hələ də güclü kişilər tərəfindən idarə edilir və bu, cəmiyyətdə təkcə kişilərin özləri deyil, elə qadınların da böyük hissəsi tərəfindən normal qəbul edilir. Şeril Sendberq tamamilə haqlı olaraq qız və oğlanlara artıq uşaqlıq illərində münasibətin fərqli olduğunu, cəmiyyətdə qadınların özlərinə yol açmasında daha çox problemlərlə qarşılaşdığını deyir.

Sendberq qadınlara problemləri açıq müzakirə etməyi tövsiyə edir və karyera quran qadınların cəmiyyətdə güclü mövqe tutmasının bütün qadınlar üçün əhəmiyyətini vurğulayır. Bununla yanaşı, o, ailədə vəzifə bölgüsü məsələsini ortaya qoyur və maliyyə məsuliyyəti və uşaqların tərbiyəsinə hər iki valideynin bərabər vaxt ayırmasını təklif edir. Bununla müəllif ailədə qadının evdarlıqla bağlı bütün yükü öz üzərinə götürməsi və maliyyə məsuliyyətinin kişi tərəfindən daşındığına görə özünü günahkar hiss etməsinə son qoyula biləcəyini düşünür.

Şeril Sendberqin kitabında irəli sürdüyü fikirlər bir daha cəmiyyətdə qadının ailə və iş arasında balans yarada bilməsi və yüksək rəhbər vəzifələr tutmaq üçün irəli gedə bilməsi məsələləri ətrafında müzakirələrin canlanmasına səbəb olub. Facebook şirkətinin prezidenti **Mark Zukerberq** Sendberqin problemə baxışlarını kifayət qədər real adlandırıb. Bu real baxışlardan real addımlar və real nəticələrə qədər qarşıda uzun və mürəkkəb yolda hələ çox qadın ailə və karyera arasında balans tapmalı olacaq.

***"Amerikanın səsi"***



# Məmməd İsmayıl

## ŞEİRLƏR

*Şairin Türkiyədən redaksiyamıza göndərdiyi şeirləri oxucularımıza təqdim edirik*

### GƏLƏCƏK...

Yollarda yorulan arxada qalar
Amma inadından dönməz yoxuşlar.
Yumurta qabığı yuvada qalar
Çıxıb gələcəyə uçanda quşlar...

Bizə gün doğursa sabaha yaxın
Eşqin anasımı deyək gecəyə.
Külü keçmişlərə qoşar ocağın,
Tüstüsü "gəl" deyən bir gələcəyə...

Yaz gəlib keçmişin yadına salar
Gizli sevgisini torpaqla dənin.
Salxım çiçəkləri budaqda qalar
Ətri gələcəyə uçar iydənin.

Gecəmi öyrənək girib yuxudan
Gündüz bu sualın cavabı yoxmu?
Buxarmı daşlanır qaynayan sudan,
Bədəndən göylərə ya da bir ruhmu?

Ağacın gələcək meyvəsi şirin
Keçmişi tökülən çiçəyindədir.
Tək bircə misrası qalan şairin
Əli gələcəyin ətəyindədir...

Arının mənzili gələcəkdisə,
Keçmişi gözləri dolan pətəkdi.
Musanı dağlara çəkən nəydisə
Məni də qürbətə o çəkəcəkdi...

Sular çağlamada gələcək deyə,
Gələcək eşqiylə göyərmədə dən.
Çıxdınmı, dönməyə yol yox geriyə
Bağışla, yumurta qabığı,vətən...

### BAĞLI GÖZLƏRİNİ KİM AÇAR İNDİ?!

Dünya da gözəldi...Ömür də gözəl,
Sinəni göynədən eşq sarı simdi.
Arxadan gözünü bağlayan bir əl
Hərdən soruşardı: tap görüm kimdi...

Ad sayıb çəkdiyin çilələr hədər
Tapmadın! Boynunda babalı qaldı.
Çəkilib getmədi üzündən əllər
O vaxtdan gözləri qapalı qaldın...

Vaxtı da unudar baxtı unudan,
Baxdı oyaq qalan yatmaya bilər.
Hardan biləsiydin gözünü tutan,
Axırda sözünü tutmaya bilər...

İnsanı azdıran insan ağlıdı,
Nədən qaçılsa da bəxtdən qaçılmaz.
Hər şeyin bir yerə başı bağlıdı
Dərddən dünyanın da gözü açılmaz...

Gələcək ölümmüş illərin ardı
Sirr dedin, sirrin də yeri bilindi.
Qolun bağlı olsa kimsə açardı,
Bağlı gözlərini kim açsın indi?!

Qışın çiləsindən üzü yazaydın
Nəydi uduzduğun, udduğun onda.
Əlinə keçmişdi...buraxmasaydın,
Bəxtin qollarıymış tutduğun onda...

Nağıl quyusunun görünməz dibi
Kəsilən kəndiri- ölüm-itimdi.
Axırda, nə əl var, nə əl sahibi
Nədə ki, üç kəlmə:- Tap görüm kimdi!

Ümid- korun-korun sönəcək ocaq,
İçində səssizcə inləyən uddu...
Bağlayan bağladı gözünü, ancaq
Qayıdıb açmağı çoxdan unutdu..

Gör harda fürsəti verdin əlindən
Gözünü bağlayan korun bəxtimi?
Sən xoşbəxt olmadın dərdin əlindən
Gör, sənə dərd verən dərd, xoşbəxtdimi?

Nə kəssin zamandan ağlı adamın
Öğey qardaşlardı bu günlə dünən...
Axırda, gözləri bağlı adamın
Qolu bağlanıb denən,
Yolu bağlanıb denən
Ölüb, ağlanıb denən!

11.01.2013

## ÖNCƏ ALLAH DE

Yuva qurmağa gedən göy üzündə bir çöpün
Bir ucundan quş yapışar o biri ucundan
Allah!

Göydən yerə süzülən Günəş adlı şəfəqin
Bir başından sən yapışarsan,
O biri başından
Allah!

Hər işinə şərikdi,-
Ömür adlı bir yolun
Bir tərəfindən sən gələrsən,o biri tərəfindən
Allah!

Həyat adlı bir işin
Bir qulpundan sən yapışarsan,
O biri ucundan
Allah!

Aç gözünü dünyaya,yavrum:
Bismillah-de!
Hər şey sonra gələcək,hər şey,sən öncə
Allah,-de!

## YETİM SEVGİ...

Gerçəkədən gerçəkdi dediyim yalan,
Məchul bir əl döyər qapımı gündə.
Məcnundan, Kərəmdən, Dilqəmdən qalan
Yetim sevgilər var bu yer üzündə...

Laləlik olmayıb nə olasıydı
Məcnunun Leyliyə gözü düşən yer?!
Gəlinqayasıydı, Qızqalasıydı
Nakam sevgilərin izi düşən yer...

Tarixə çilənən o göz yaşları,
İnləyib saralan simlər üçündür.
Gecə tənha qalan bulaq başları,
Sevgi yaddaşları...kimlər üçündür?

Talelər dərbədər, diyar-diyardı
Nə yaxın edər ki, bu uzaqları,
Niyə Ərzurumun gədiyi qardı
Görənə dağ çəkər Məcnun dağları?!

Hər eşqin axırı bir günahladı,
Suda sınmayacaq su qabı yoxdu...
Şirin Xosrovlara könül bağladı,
Fərhadlar neyləsin?
Cavabı yoxdu...

Zaman dolayında çıxmaz ki, yoxa
Təkrarı olmayan qədim sevgilər.
Quş budaq axtarar uçub qonmağa
Bəs onda neyləsin yetim sevgilər?

Tapar tapmacanın cavabını kim?
Qəriblik Allahın hədiyyəsiymiş...
Mən hardan biləydim yetim ürəyim
Yetim sevgilərin ev yiyəsiymiş...

Hicrət günəşinə qürub olmuşam
Bulud gözlərimdən axsa, nəm gələr..
Qürbətə düşəli Qərib olmuşam,
Hər gecə yuxuma Şahsənəm gələr...
Bütün sevgilərin mənəm günahı,
Yetim sevdaların "Yetim segahı!"

# ГИПЕРТОНИЯ И ПЕРЕМЕНА ПОГОДЫ



*Каждая перемена погоды оказывает влияние на наш организм. Например, в жару человек потеет и выпивает большое количество воды – так организм «спасается» от высыхания. Но, как следствие, у многих людей расширяются сосуды, отекают мягкие ткани, особенно на ногах. Сердце начинает учащенно биться, затем устает. Чтобы спасти сердце, мозг «даёт команду» уменьшить объём крови проходящей через сердце. В результате начинается спазм сосудов, а это, в свою очередь, приводит к повышению артериального давления (АД). Появляется противная тяжесть в голове, чувство «стеснения» в груди, нехватка воздуха – вот начальные симптомы повышения АД. Многие люди так и живут, списывая всё на погоду. Но так ли это?*

Многие считают, что с гипертонией можно жить долго без всякого лечения. Это мнение широко распространено, но, к сожалению, ошибочно. Каждый случай повышения давления крови не проходит бесследно. Он повреждает мелкие артерии, нарушая функции всех органов. Патологические процессы во внутренних органах, сосудистой системе и в головном мозге развиваются постепенно вглубь и в ширь, доходят в итоге до необратимой стадии. Это инсульт мозга, инфаркт миокарда, почечная недостаточность, отслоение сетчатки глаз, приводящее к слепоте и т.д. Многие также считают, что раз давление нормализовалось, продолжать пить лекарства не нужно. Это также очень опасное заблуждение. Лечение гипертонической болезни должно быть постепенным, прекращать прием лекарства нельзя. Ведь давление пришло в норму под действием медикамента, оно снова «подскочит», если его убрать. Лечение гипертонии нельзя прекращать, которое, к сожалению, случается нечасто. Многие пациенты говорят, например, что их «рабочее» давление 160/100 и снижать его не надо, они к нему привыкли и чувствуют себя нормально. Но это не так. Нормальным считается давление, не превышающее 140/90 мм рт.ст. Цифры даже чуть выше означают, что у вас первая стадия гипертонической болезни. При давлении 160/100-110 – вторая стадия. А 180 и выше на 110 и выше – уже третья...

Как же жить с повышенным давлением? Надо определить для себя, чего делать категорически нельзя. Это может показаться слишком банальным, соблюдать специальную диету, ограничить алкоголь, обеспечить регулярную индивидуальную подобранную физическую нагрузку, избавиться от лишнего веса. Эффективность этих мер доказана, но их соблюдение зависит от самого больного.

Гипертоническая болезнь очень непредсказуема и коварна. Как быть, если вдруг под рукой нет лекарств, а давление поднялось? Конечно, вызывать скорую помощь. Из бытовых средств поможет недельный настой чайного гриба, столь популярный у наших бабушек и тетушек.

Его принимают по полстакана за 1 час до еды 3-4 раза в день. Это значительно снижает не только давление, но и уровень холестерина в крови, нормализуется сон, проходят головные боли и боли в сердце. Для гипертоников и сердечников подойдет и яблочный уксус, он очистит кровеносные сосуды, улучшит свёртываемости крови и окажет гипотензивное (понижающее давление) действие. Доступное всем народное средство – чайную ложку корицы (darçın) размешайте в стакане кефира и выпейте перед сном.

Если отклонения артериального давления от нормы не очень велики, поможет даже лавровый лист: с вечера опустите в термос 3-4 лавровых листа и залейте стаканом кипятка. За полчаса до завтрака отлейте полстакана и выпейте. Остаток – перед ужином. При перемене погоды поможет специальный массаж для предупреждения очередного поднятия давления или в ожидании стресса.

Для этого можно поглаживать ладонями лоб от переносицы к ушам, лийо – от лба к подбородку, виску – кончиками среднего и указательного пальцев, шею – от затылка к лопаткам (здесь понадобится чья-нибудь помощь), плечевым лучезапястным суставам. Каждый приём повторяют по 15 раз. Конечно, этот метод не для ленивых, но если он войдёт в привычку, то не составит большого труда и принесёт хорошие результаты.

У некоторых людей даже в ожидании волнений или стрессовых ситуаций пульс доходит до 120 ударов в минуту. Такая реакция на перегрузки говорит о высокой лабильности сердечно-сосудистой и нервной систем. Таких людей называют «гиперреакторы». И у них очень часто впоследствии развивается гипертоническая болезнь. Поэтому важно не упустить момент когда ещё не поздно начать медикаментозную терапию.

Будьте оптимистами, не переживайте по мелочам, научитесь саморегуляции. Умение владеть собой в любой ситуации очень важно для полноценной и здоровой жизни. Ведь жизнь прекрасна всегда, во всех своих проявлениях. Не дайте болезни победить себя!

***Лейла Джамильзаде,***
***врач Университета Хазар***

## MOBİL OPERATORLAR VASİTƏSİLƏ MƏLUMAT

*Valideynlər immunlaşdırmaya dair məlumatları mobil operatorlar vasitəsilə əldə edəcəklər*



Səhiyyə Nazirliyi vətəndaşlara immunlaşdırma təqvimi haqqında məlumatları elektron xidmət vasitəsilə çatdıracaqdır.

Nazirliyin mətbuat xidmətindən AzərTAc-a bildirmişlər ki, hazırda test mərhələsində olan bu xidmətdən bütün mobil operator istifadəçiləri faydalana biləcəklər. Bunun üçün valideynlər istənilən mobil operatordan "peyvənd" sözünü və uşağın elektron sağlamlıq kartındakı unikal kodunu yazaraq 9103-ə mesaj göndərməlidirlər. Bundan sonra onlara uşağın növbəti peyvəndinin adı və tarixi barədə məlumat veriləcəkdir.

Bu xidmət ölkə üzrə həyata keçiriləcəkdir.

## XƏSTƏLİK NƏFƏSLƏ MÜƏYYƏNLƏŞDİRİLƏ BİLƏR

*İsveçrənin ali texniki məktəbinin alimləri bildirmişlər ki, sidik və qan analizi kimi, gələcəkdə insanın verdiyi nəfəsin tərkibi ilə də xəstəliyi müəyyənləşdirmək mümkün olacaqdır*

Tədqiqatçılar 11 nəfərin verdiyi nəfəsin kimyəvi tərkibini öyrənmişlər.

Müayinə nəticəsində alimlər bütün iştirakçılarda əhəmiyyətli dərəcədə fərqlər müəyyənləşdirmişlər. Tədqiqatçılar, həmçinin aşkar etmişlər ki, hər bir insanın barmaq izləri fərqli olduğu kimi, verdikləri nəfəsin tərkibi də müxtəlifdir. Alimlər etiraf etmişlər ki, bu unikal xüsusiyyətin yaranmasına təsir edən amillər, hələ də məlum deyildir.

Tədqiqatçıların fikrincə, nəfəsin analizi klinik məlumatın çox qiymətli mənbəyi ola bilər. Qan və sidik analizi üçün xeyli vaxt və xüsusi şərait tələb olunduğu halda, belə müayinəyə yalnız bir neçə dəqiqə kifayət edər. Həmçinin diaqnostikanın bu metodu insanlara heç bir narahatlıq yaratmır.

## MÜTƏXƏSSİSLƏR FINDIĞIN FAYDALI XÜSUSİYYƏTLƏRİ HAQQINDA

*Tozağacıkimilər fəsiləsinə aid olan fındıq zülalla, mürəkkəb karbohidratlarla, hüceyrəli və doymamış yağlarla, dəmir, kalsium, maqnezium, sink, protein kimi minerallarla, E vitamini ilə zəngindir*



Mütəxəssislər müəyyənləşdirmişlər ki, fındıq bədənə güc və enerji verir, zehni, fiziki yorğunluğu aradan qaldırır. Tərkibində olan yüksək kalsium sümükləri və dişləri gücləndirir.

Fındıq ağciyər xəstəliklərində faydalıdır. Qanazlığı, həzm və qan dövranı sistemi pozuntularının qarşısını almaqda kömək edir. Ondan istifadə qanda xolesterinin artmasının qarşısını alır. Müntəzəm olaraq fındıq yemək infarkt riskini azaldır.

Fındıq yağı böyrək daşlarını və qumunu salmağa yardım edir, böyrək ağrılarında yaxşı təsir göstərir. Lakin yüksək təzyiq və mədəsindən şikayəti olanlara çox istifadə məsləhət görülmür.

Fındığın yağından kosmetologiyada da geniş istifadə edilir.

## KİM DAHA ÇOX YAŞAYIR: QADINLAR, YOXSA KİŞİLƏR?

*Avropada kişilər qadınlardan az yaşayır; bu barədə məlumat Dünya Səhiyyə Təşkilatının hesabatında yer almışdır. Hesabat dünyanın 53 ölkəsindən 9 milyon insana dair araşdırmanı əhatə edir*

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, cinslər arasında ömür fərqi orta hesabla 7,5 ildir. Burada hesab heç də kişilərin xeyrinə deyildir. Məsələn, 2010-cu ildə Avropada qadınlar orta hesabla 80 il, kişilər isə 72,5 il yaşayırdılar. Alimlər fərqi həyat tərzi və iş şəraiti ilə izah etmişlər.

Ekspertlərin sözlərinə görə, qadınlarla kişilərin ömür göstəriciləri arasında fərq daha çox Belarus, Estoniya, Qazaxıstan, Litva, Monteneqro, Rusiya və Ukraynada, ən az isə İsrail, İslandiya, Hollandiya, İsveç və Britaniyadadır.

## ÇOBANYASTIĞI ÇİÇƏYİNİN FAYDALI XÜSUSİYYƏTLƏRİ

*Mürəkkəbçiçəklilər fəsiləsinə aid olan çobanyastığı yol kənarlarında və boş ərazilərdə özbaşına bitən, xoş ətrə malik sarı-ağ rəngli çiçək açan bir bitkidir*



Dünyanın bir çox ölkələrində bu bitkinin çiçəklərindən müalicə – profilaktiki və kosmetik məqsədlə istifadə edilir.

Çobanyastığının faydasından danışarkən, mütəxəssislər ilk növbədə onun antiseptik, ağrıkəsici, sakitləşdirici, allergiya və iltihab əleyhinə vasitə olduğunu qeyd edirlər.

Çobanyastığı dəmləməsi mədə-bağırsaq, dəri, ağız boşluğu, tənəffüs yolları, qadın xəstəlikləri və digər xəstəliklər zamanı çox faydalıdır. Ondan həmçinin irinli yaraların, xoraların yuyulmasında, göz xəstəliklərinin müalicəsində də istifadə edilir.

Çobanyastığı iştahanı açır, sinirləri sakitləşdirir, baş, bel və diş ağrıları zamanı müsbət təsir göstərir. Sidikqovucu, hərarətsalıcı və mikroböldürücü xüsusiyyətlərə də malikdir.

Çobanyastığı çayından və yağından tibdə çox istifadə edilir. Çobanyastığı çayı dərini təmizləmək və təravətli etmək baxımından da çox faydalıdır. Saçları bu dəmləmə ilə yumaq onlara parlaqlıq verir. Çobanyastığını qaynadıb buxarı ilə tənəffüs etmək soyuqdəymə və sinusitdə xeyirlidir.

## ƏSƏB HÜCEYRƏLƏRİNİ BƏRPA ETMƏK MÜMKÜN OLACAQ

*Alimlər altsheymer, parkinson xəstəlikləri və onurğa sütunu zədələnmələri ilə bağlı olan bir sıra genlər aşkar etmişlər*

Həmin genlər ilanbalığında aşkar olunmuşdur. İnsandan fərqli olaraq, ilanbalığı əsəb sistemini bərpa edə bilir. Məsələn, əgər onurğa beyni zədələnirsə, əsəb hüceyrələri bərpa olur və 10-12 həftədən sonra ilanbalığı artıq normal hərəkət edir.

İlanbalığında iri neyronlar mövcuddur ki, bu da onun laboratoriya şəraitində tədqiq olunmasını son dərəcə asanlaşdırır.

Bu yaxınlarda isə alimlər onun geninin şifrələrini açmışlar. Şifrələrin açılmasında ABŞ-ın Miçiqan və Kentukki universitetlərinin 59 mütəxəssisi iştirak etmişdir. Məlum olmuşdur ki, ilanbalığının neyronlarında mielin müdafiə qişası yoxdur. Məhz bu, əsəb impulslarının sürətlə keçməsinə imkan verir. İnsanda isə zədələnmə zamanı mielin neyronların fəallığına mane olur. Alimlər inanırlar ki, əgər əngəlləyici elementlər aradan qaldırılarsa, kürək zədələnməsi nəticəsində iflicdən əziyyət çəkənləri müalicə etmək mümkün olacaqdır.

Hazırda genetiklər zədələr və regenerasiya zamanı aktivləşən genlərin araşdırılması ilə məşğuldurlar.

## ANA SÜDÜNÜN QÜDRƏTİNİ BİLİRSİNİZMİ?

*Azeriqadın-a istinadən ana südü ilə bağlı faktları təqdim edirik*

- Hər körpə üçün ən yaxşı, ən təbii və ən təzə qidadır.
- Daima hazır və pulsuzdur. Xüsusi xərc tələb etməz.
- Bütünlüklə və asanlıqla həzm edilir.
- İshal, qarın ağrısı və qəbizlik daha az müşahidə edilir.
- İmmun sistemini gücləndirir, infeksiyalardan qoruyur.
- Körpənizin daha ağıllı olmasını təmin edir.
- Körpənin su ehtiyacını tam olaraq qarşılayır, ayrıca su verilməsinə ehtiyac qalmır.
- Doğumdan sonra gələn ağız südü körpəni xəstəlikdən qoruyur.
- Körpə ilə ana arasında xüsusi sevgi bağını təmin edir.
- Əmizdirmə ananın sağlamlığını qoruyur, süd vəzisi və uşaqlıq xərçəngi olma riskini azaldır.



## "SƏLCUQLU MƏTBƏXİ" YEMƏK KİTABLARININ "NOBEL"İNİ ALDI

*Türk araşdırmaçının kitabı beynəlxalq müsabiqənin birincisi oldu*



Yemək kitablarının Nobeli" adlandırılan "Gourmand Cookbook Awards" müsabiqəsində türkiyəli Məhəmməd Ömür Akkorun "Səlcuqlu mətbəxi" adlı əsəri "Dünyanın ən yaxşı mətbəx tarixi" mükafatına layiq görülüb.

Milli.Az TRT-yə istinadən bildirir ki, ABŞ, Fransa, Meksika və İspaniyadan müsabiqəyə qatılan əsərləri geridə qoyan əsərdə Ömür Akkorun uzun müddət davam edən araşdırmaları nəticəsində ortaya çıxardığı Səlcuqlu dövrünə aid yemək reseptlərinə yer verilib.

Kitaba Səlcuqlu dövrünə aid 6 şorba, 25 ziyafət yeməyi, 18 şirniyyat, 16 şərbət və içki reseptiylə yanaşı, qısa bir hekayə də daxil edilib.

## ÖLKƏNİN ƏN YAXŞI İTİ SEÇİLDİ

*İngiltərənin Birmingem şəhərində ənənəvi Crufts dog show 2013 it sərgisi başa çatıb*



Mart ayında 4 gün davam etmiş sərgidə 25 min it nümayiş olunub. Milli.Az The Guardian-a istinadən bildirir ki, 1891-ci ildən bəri hər il keçirilən şounun builki qalibi Oksfordşir qraflığındkı Uollinqford şəhərində yaşayan Qevin və Sara Robertsonların Jilli adlı köpəyidir.

Kiçik basset-qrifon cinsindən olan Jilli sahiblərinə böyük kubok qazandırıb.

## NƏHƏNG "TİTANİK" SƏRNİŞİN GƏMİSİNİN TAM OXŞARI DÜZƏLDİLƏCƏK

*1912-ci ildə Atlantik okeanının şimalında aysberqlə toqquşaraq batan nəhəng "Titanik" sərnişin gəmisinin tam oxşarı hazırlanacaq*



Yeni "Titanik" yetərincə xilasetmə qayıqlarına malik olmaqla dünyanın ən təhlükəsiz sərnişin gəmisi sayılacaqdır.Gəminin hazırlanması ideyası avstraliyalı milyarder Klayv Palmerə məxsusdur. O, "Titanik-2" gəmisinin layihəsini Nyu-Yorkda təqdim etmişdir.

"Titanik"in tam oxşarının uzunluğu 270 metr, çəkisi 40 min ton olacaqdır. Gəminin 9 göyərtəsində 850 kayuta olacaqdır.

Sərnişinlər 100 il əvvəlki dəblə geyinəcək, batmış "Titanik"dəki qab-qacağın tam oxşarlarından yemək yeyəcəklər. "Titanik-2"nin ilk reysinə çox böyük tələbat vardır. Onlarla müştəri 1-ci sinifdəki kayuta bilet üçün 1 milyon dollar təklif etmişdir.

## DÜNYANIN ƏN HÜNDÜR OTELİ AÇILDI

*Birləşmiş Ərəb Əmirliklərdə dünyanın ən hündür oteli işə başlayıb.*



Lent.az-ın "mignews.com" saytına istinadən verdiyi məlumata görə, Dubayda açılan "JW Marriott Marquis" otelinin hündürlüyü 355 metrdir.

İki qüllədən ibarət otelin arxitekturası xurma ağacını xatırladır. Ərəblər bu otelin tək Yaxın Şərqdə yox, bütün dünyada ən komfortlu və dəbdəbəli otel sayırlar. 1600 nömrəsi olan "JW Marriott Marquis" oteli işgüzar adamlar üçün nəzərdə tutulub. Oteldəki 14 restoranda isə 3 min nəfər eyni vaxtda səhər və şam yeməyi yeyə bilər. "JW Marriott Marquis" otelində çalışmaq üçün dünyanın 67 ölkəsindən işçi götürülüb.

## ÇƏYİRDƏKSİZ NAR SORTU YARADILMIŞDIR

*Daşkənddəki Mirzə Uluğbəy adına Özbəkistan Milli Universiteti biologiya və torpaqşünaslıq fakültəsinin aspirantı Əlişir Səfərov çəyirdəksiz (tumsuz) nar sortu yaratmışdır*

Ötən ilin payızında Nəvai vilayətinin Kızıltepe rayonunda əkilmiş nar ağaclarından ilk məhsul alınmışdır. Parlaq qırmızı rəngdə olan məhsul keyfiyyətinə görə çəyirdəkli nardan heç də geri qalmır və təbii şirə hazırlanmasında əvəzsizdir. Yeni sortda məhsuldarlıq çox yüksəkdir və bir narın çəkisi 250-300 qram ağırlığındadır. Bu sortun üstünlüyü ondadır ki, şoran torpaqlarda və səhra şəraitində də yaxşı məhsul əldə etmək olur.

Hazırda yeni sortdan 200 ting hazırlanmışdır və əkilmək üçün müxtəlif vilayətlərə göndəriləcəkdir.

## KİM ÇOX DANIŞIR?

*Amerikalı alimlərin növbəti araşdırmaları qadınların çox danışan olduqlarını sübut etmişdir*

ABŞ-ın Merilend Universiteti alimlərinin araşdırmalarının orta statistik nəticələrinə görə, qadın kişi ilə müqayisədə gündə 13 min kəlmə daha çox danışır. Onlar orta hesabla gündə 20 min, kişilər isə təxminən 7 min söz deyirlər.

Araşdırmalar göstərmişdir ki, qadın orqanizmində olan və "dil proteini" adlandırılan xüsusi maddə xanımları çox danışmağa vadar edir.

Kişilərlə müqayisədə qadın orqanizmində 30 faiz daha çox olan bu proteinin sayəsində uşaqlar arasında qızlar oğlanlardan tez danışırlar.

Alimlərin araşdırmalarına dair hesabat "The Journal of Neuroscience"də dərc olunmuşdur.



## GÜNDOĞAN ÖLKƏNİN YENİ KƏŞFİ

*Yaponiya nadir texnologiyalar və kəşfləri ilə dünyanı heyrətləndirməkdədir*

Yaponiyayenə də nadir texnologiyalar və kəşfləri ilə dünyanı heyrətləndirməkdədir. Bu dəfə isə ölkənin bir neçə reklam agentliyi dünyada ilk dəfə "qız baldırları" adlanan texnologiyanın tətbiqinə başlamışdır.

Bu "texnologiya" mini yubka geyinmiş qızların baldırlarına reklam xarakterli mətn, ticari nişan və ya stikerin yapışdırılmasını nəzərdə tutur.

Reklam agentliklərindən biri ilə müqavilə bağlayaraq pul alan qız sutka ərzində ən azı 8 saat mini yubkada gəzməli, bütün ictimai yerlərdə baldırında reklamla peyda olmalıdır.

Yeni marketinq strategiyası ilk dəfə paytaxt Tokioda tətbiq olunmuşdur. Ötən ilin noyabrından reallaşdırılan layihə çərçivəsində artıq 1200 qız reklam agentlikləri ilə müqavilələr bağlamışdır.

"Qız baldırları" texnologiyasının tətbiqi sahəsində lider qurum Tokiodakı "Absolute Territory PR" reklam agentliyidir.

## EVERESTİ İKİ DƏFƏ FƏTH EDƏN QADIN "GİNNESİN REKORDLAR KİTABI"NDA

*Çxurim adlı nepallı qadın dünyanın ən yüksək zirvəsinə qalxdığı üçün "Ginnesin rekordlar kitabı"na düşmüşdür*



İyirmi doqquz yaşlı qadın keçən il mayın 12-də 8.848 metr hündürlükdə zirvəyə qalxmış, bir həftə sonra yenidən həmin zirvəni fəth etmişdir.Bu günlərdə Katmanduda keçirilən mərasimdə Nepalın turizm naziri Posta Bahadur Bohati Çxurimin hərəkətinin "Ginnesin rekordlar kitabı"na düşməsi barədə sertifikatı ona təqdim etmişdir.

Alpinist qadın gələcəkdə planetin başqa zirvələrini də fəth etmək niyyətindədir.

## ƏHMƏDİNEJADA VERİLMİŞ HƏDİYYƏLƏR HƏRRACDA

*İran İslam Respublikasının prezidenti Mahmud Əhmədinejada hökumət başçısı olduğu illərdə verilən hədiyyələr hərraca çıxarılıb*



Əvvəllər hökumət başçılarına verilən hədiyyələr özəl muzeydə saxlanılırdı. Ancaq ötən il Əhmədinejad onları dövlətin sosial qurumlarına verməyi qərara alıb.Keçən il 72 belə hədiyyə hərraca çıxarılıb. 21 hədiyyə satılıb və onlardan əldə edilən 350 min dollar sosial qurumlara verilib. Bu il qalan əşyalar yenidən hərraca çıxarılıb.

Satışa çıxarılanlar arasında Çarli Çaplinin xatirəsinə hazırlanmış "Mont Blanc" markalı platin qələm (1930-cu ildə istehsal edilmiş və briliantla bəzədilmiş 88 qələmdən biridir), pakistanlı həmkarının Əhmədinejada hədiyyəsi olan briliant boyunbağı, Qətər Əmirinin verdiyi nadir İslam üzüyü və digər zinət əşyaları da var.

"İran şahları" adlı sarayda keçirilmiş auksiondan əldə olunan gəlir müharibə veteranları və dul qadınlar üçün ev tikməyə sərf ediləcək.

## DÜNYANIN ƏN VARLI QADINI

*L'Oreal parfümeriya konserninin sahibəsi Lilian Betakur "Dünyanın ən varlı qadını" seçilib.*



O, "Forbes" jurnalının ənənəvi "Dünyanın ən varlı qadınları" reytinqinə başçılıq edir.

90 yaşlı Betankurun varidatının 30 milyard dollar olduğu vurğulanır. Hüquqi baxımdan Betankur anlaqlı olmadığından onun imperiyasını qızı idarə edir.

Reytinqdə ikinci yeri Wal-Mart qlobal marketlər şəbəkəsinin varisi Con Uoltonun 58 yaşlı dul xanımı Kristi Uoltondur.

Kristi Uoltonun 28,2 milyard dollarlıq varidatı var.

3-cü yerdə isə Wal-Mart imperiyasının banisinin 63 yaşlı qızı, 26,3 milyardlıq varidat yiyəsi Elis Uolton bərqərar olub.

## 65 MİN HEKTAR ƏRAZİ, 70 GÖL, 13 KOTTEC VƏ 5 ADA: ALMAQ İSTƏYİRSİNİZ?

*Kanadanın Kvebek əyalətində özəl məkan satışa çıxarılıb*

Monreal şəhərindən bir saatlıq yolda olan Kenauk adlı bu məkan 65 min hektar ərazi, 70 kiçik göl, 13 kottec və 5 adadan ibarətdir.Bu məkanın satış qiməti 79 milyon dollardır.

Kenaukda skandinav stilində inşa edilmiş 13 kottec də var.

Kvebekdəki Montebello kəndinin yaxınlığında yerləşən məkanı Oxford Properties Group şirkətinin vəkaləti ilə Sotheby's İnternational Reality satışa çıxarıb.

## TİRANADA MİLLİ KOMANDAMIZIN UĞURU

*Albaniyanın paytaxtı Tiranada keçirilən ağır atletika üzrə Avropa çempionatında milli komandamız 2 qızıl, 2 gümüş və 1 bürünc medal qazanmışdır*



Milli komandamızın üzvləri aprelin 16-da Vətənə qayıtmışlar. AzərTAc xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda idmançıların təntənəli qarşılanma mərasimi olmuşdur.

Yerli azarkeşlər, qaliblərin doğmaları və yaxınları onları gül-çiçək dəstələri ilə qarşılamışlar. Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov idmançılarımızın qazandıqları uğurları tarixi hadisə kimi qiymətləndirmiş, ölkəmizdə idmana göstərilən diqqət və qayğıdan danışmışdır. O qeyd etmişdir ki, qarşıda idmançılarımızı daha böyük yarışlar gözləyir. Əminəm ki, bu uğurların davamı olaraq atletlərimiz dünya çempionatında da mükafatçılar sırasında olacaqlar.

Çempionatda bürünc medal qazanmış Zülfüqar Süleymanov (62 kq) demişdir: "Medal qazanacağımı gözləmirdim. Həqiqətən də böyük əziyyət və səbir hesabına qazanılan qələbədir. Məşqçim də mənim bu nəticəni qazanmağım üçün çox çalışmışdır. Yarışa çıxarkən idmansevərlərimizin, xalqımızın dəstəyini hər an hiss etmişəm. Etimadı doğrultduğuma görə sevinirəm".

Yarışın qızıl medalçısı Valentin Xristov (62 kq) isə qeyd etmişdir ki, növbəti dəfə Avropa çempionu adını qazanmaq çox gözəl hissdir. Buna nail olduğuma görə çox şadam. Qələbə üçün möhkəm çalışmış, yarışa ciddi hazırlaşmışdım. Əməyimin bəhrəsini gördüm.

Çempionatda milli komandamız 2 qızıl, 2 gümüş və 1 bürünc medal qazanmışdır. Ümumi komanda hesabında millimiz ikinci pillədə qərarlaşmışdır. Bu, ötən ilki uğurun təkrarıdır. Xatırladaq ki, 2012-ci ildə Türkiyənin Antalya şəhərində keçirilən Avropa çempionatında Azərbaycan yığması 3 qızıl və 2 bürünc medal qazanmışdı.

Avropa çempionu, London Olimpiadasının bürünc mükafatçısı Valentin Xristov bu çempionatda təkanla qaldırma üzrə yerinə yetirdiyi iki uğurlu yanaşma ilə bir neçə Avropa rekordunu yeniləmişdir. Birinci yanaşmada 170 kiloqramı ram edən idmançımız bununla Avropanın həm gənclər, həm də yaşı 23-dək olan idmançılar arasında rekordunu təzələmişdir.

Gənclər arasında Avropa rekordu rus atleti Sergey Petrosyana məxsus idi. O, 2008-ci il aprelin 15-də İtaliyanın Linyano şəhərində keçirilən çempionatda bu nəticəni qazanmışdı. Yaşı 23-dək olan idmançıların təkanla qaldırma rekordu da rusiyalı Pavel Suxanova məxsus idi. O, 2011-ci il sentyabrın 12-də Rumıniyanın paytaxtı Buxarestdə 163 kiloqramın öhdəsindən gəlmişdi. Bu yaş qrupunda toplamdakı rekord isə türkiyəli Bünyamin Sezərin adına yazılmışdır. O, 2011-ci il aprelin 12-də Rusiyanın Kazan şəhərində keçirilən Avropa çempionatında 298 kiloqramı ram etmişdi. Valentin Xristov isə toplamda 307 kiloqram nəticə göstərərək həm Avropada toplam rekordu, həm də öz rekordunu yeniləmiş olmuşdur.

## İLİADİS KUBOKU YARIŞLARINDA YEDDİ MEDAL

*Solonikidə (Yunanıstan) aprelin 8-də başa çatmış cüdo üzrə İliadis Kuboku yarışlarında Azərbaycan komandası bir qızıl, bir gümüş və beş bürünc medal qazanmışdır*

Azərbaycan Cüdo Federasiyasından AzərTAc-a bildirmişlər ki, fəxri kürsünün ən yüksək pilləsinə Mehman Sadıxov (55 kq) qalxmışdır. O, keçirdiyi dörd görüşün hamısında qələbəsini "ippon"la qeyd etmişdir. Gürcüstanlı Georgi Saçaleli ilə final görüşü də istisna təşkil etməmişdir.

Gümüş mükafata Cəlil Cəlilov (66 kq) layiq görülmüşdür. Üçüncü yeri isə Telman Vəliyev (60 kq), Afiq Səfərli (73 kq), Məmmədəli Mehdiyev (81 kq), Firudin Dadaşov (90 kq) və Andrey Fətiyev (+100 kq) tutmuşlar. Ümumi hesabda kollektivimiz iyirmi ölkə arasında altıncı olmuşdur.

## NADİR NƏSİBOV YENİDƏN AZƏRBAYCAN BASKETBOL FEDERASİYASININ PREZİDENTİ SEÇİLMİŞDİR

*Aprelin 9-da Heydər Əliyev adına İdman-Konsert Kompleksində Azərbaycan Basketbol Federasiyasının (ABF) hesabat-seçki konfransı keçirilmişdir*



AzərTAc xəbər verir ki, əvvəlcə ABF-nin baş katibi Qəhrəman Məmmədyarov hesabat məruzəsi ilə çıxış etmişdir. Baş katib Azərbaycan basketbolçularının 2008-2012-ci illərdə qazandığı nailiyyətlərdən danışmışdır.

Sonra basketbolçular və məşqçilər hesabat məruzəsi ətrafında fikirlərini bildirmiş, federasiyanın prezident və baş katib vəzifələrinə seçkilər keçirilmişdir.

Nadir Nəsibov yenidən ABF-nin prezidenti seçilmiş, Q.Məmmədyarov baş katib vəzifəsinə təyin olunmuşdur.

Basketbol üzrə Azərbaycan milli komandasının sabiq məşqçisi Rimas Kurtinaytis ABF-nin Rəyasət Heyətinin fəxri üzvü seçilmişdir. Qeyd edək ki, millimiz R.Kurtinaytisin rəhbərliyi altında 2005-ci ildə Dünya İslam Oyunlarında qızıl medal qazanmışdı.

## AZƏRBAYCAN QADIN GİMNASTLARI LATVİYA TURNİRİNDƏ YEDDİ MEDAL QAZANMIŞLAR

*Riqada bədii gimnastika üzrə "Baltik halqası-2013" beynəlxalq turniri aprelin 15-də başa çatmışdır*

AzərTAc xəbər verir ki, Azərbaycanın qadın idmançıları yeddi medal qazanmışlar ki, bunlardan da dördü qızıldır. Marina Durunda (çoxnövçülük, lent), Lalə Yusifova (top) və qrup komanda (5 halqa ilə) fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar. M.Durunda həmçinin bir gümüş (gürz) və iki bürünc (top və halqa) medal qazanmışdır.

## ŞƏHRİYAR MƏMMƏDYAROV ŞAHMAT ÜZRƏ KOMANDALARARASI ÇEMPİONATDA UĞURLA ÇIXIŞ ETMİŞDİR



*Rusiyanın Krasnodar vilayətində şahmat üzrə komandalararası çempionat aprelin 15-də başa çatmışdır*

Azərbaycan Şahmat Federasiyasından AzərTAc-a bildirmişlər ki, dairəvi sistem üzrə keçirilmiş turnirdə ölkəmizdən Şəhriyar Məmmədyarovun təmsil etdiyi "Malakhit ŞF" komandası çempionatı ikincisi pillədə başa vurmuşdur.

Yarışın birincisi isə "SPb ŞF" kollektivi olmuşdur.

## AZƏRBAYCAN QROSSMEYSTERİ ŞAHMAT ÜZRƏ BEYNƏLXALQ TURNİRİN QALİBİ OLMUŞDUR

*Türkiyənin Qəhrəmanmaraş səhərində şahmat üzrə 4-cü Beynəlxalq turnir keçirilmişdir*

AzərTAc xəbər verir ki, səkkiz ölkədən 600 idmançının qatıldığı turnirin qalibi Azərbaycan qrossmeysteri Azər Mirzəyev olmuşdur.

Turnirdə iştirak etmiş digər təmsilçimiz Ayaz Məmmədov çempionatı yeddinci pillədə başa vurmuşdur.

Turnirin ümumi mükafat fondu 1300 türk lirəsi təşkil etmişdir.

## AVROPA OYUNLARI İLƏ BAĞLI KOORDİNASİYA KOMİSSİYASI YARADILDI

*Avropa Olimpiya Komitəsi (EOC) 2015-ci ildə Bakıda keçiriləcək I Avropa Oyunları ilə bağlı Koordinasiya Komissiyası yaradıb; komissiyanın tərkibini qurumun prezidenti Patrik Hikki açıqlayıb*

O bildirib ki, ilk Oyunlar qitənin elit idmançıları üçün çoxprofilli idman hadisəsi sayılacaq və 7000 idmançının iştirakı ilə 2015-ci ilin iyununda təşkil olunacaq. Komissiyanın sədri vəzifəsinə Yunanıstan Olimpiya Komitəsinin prezidenti Spiros Kapralos təyin edilib. Sədr müavini isə Xorvatiya Olimpiya Komitəsinin prezidenti Zlatko Mateşa olub. Komissiyanın daha 14 üzvü var: Alexandro Blanko – İspaniya Olimpiya Komitəsinin prezidenti; Andre Bolhius – Hollandiya Olimpiya Komitəsinin prezidenti; Quido de Bont – Belçika Olimpiya Komitəsinin baş katibi, Avropa Yeniyetmələrinin Olimpiya Festivalının sədri; Sergey Bubka – Beynəlxalq Atletika Federasiyaları Assosiasiyasının vitse-prezidenti, Ukrayna Olimpiya Komitəsinin prezidenti; Endryu Kreyq – məsləhətçi; Nəşə Gündoğan – Türkiyə Olimpiya Komitəsinin baş katibi; Yanets Kotsiyançiç – Sloveniya Olimpiya Komitəsinin prezidenti, Beynəlxalq Xizəksürmə Federasiyasının vitse-prezidenti; Denis Masseqlia – Fransa Olimpiya Komitəsinin prezidenti; Nils Niqard – Danimarka Olimpiya Komitəsinin prezidenti; Pirs O Kallagen – məsləhətçi; Arturus Poviliunas – Litva Olimpiya Komitəsinin fəxri prezidenti; Bernhard Şvank – 2018-ci il Münhen Qış Olimpiya Oyunlarının keçmiş icraçı direktoru, DOSB-nin İdman Ustalığı Direktoru; Rocer Talermo – Finlandiya Olimpiya Komitəsinin prezidenti; Albert Vuds – Avropa Kanoe Federasiyasının prezidenti, Böyük Britaniya Olimpiya Assosiasiyasının vitse-prezidenti.

Komissiyanın hər bir üzvü Avropa Oyunlarının hazırlıq prosesinə etibarlı və hərtərəfli qiymətin verilməsi üçün konkret texniki məsələlərdə məsuliyyət daşıyacaq. Onlara Hikkinin özü, EOC-un vitse-prezidenti Aleksandr Kozlovski, baş katib Raffaele Panyotsi və xəzinədar Kikis Lazaridisin tam və fəal dəstək verəcək.

EOC prezidentinin fikrincə, bu, çox güclü Koordinasiya Komissiyasıdır. Hər bir üzv zəngin təcrübə və biliyə malikdir. Bu da 2019-cu ildə keçiriləcək növbəti Avropa Oyunlarının təşkilinə böyük köməklik göstərəcək. Eyni zamanda Azərbaycanda da texniki ekspertlər təyin olunacaq.

Qeyd edək ki, I Avropa Oyunlarının Bakıda təşkilinə dair qərar EOC-un 2012-ci ilin dekabrında İtaliyanın paytaxtı Romada keçirilən Baş Assambleyasında verilib.

## SAMBOÇULARIMIZ AVROPA BİRİNCİLİYİNDƏ İKİ MEDAL QAZANMIŞLAR

*Cənubi Kiprin Limassol şəhərində yeniyetmə və gənclər arasında sambo üzrə Avropa birinciliyi aprelin 14-də başa çatmışdır*

AzərTAc xəbər verir ki, yarışda Azərbaycan milli komandasının üzvləri Ülvi Xankişiyev (48 kq) və Fərid Mikayılov (62 kq) bürünc medal qazanmışlar.

## ALLAH RƏHMƏT ELƏSİN!

Xəzər Universitetinin rəhbərliyi, professor-müəllim heyəti universitetin İnsan resursları departamentinin direktor assistenti Türkan Abdullayevaya anası

**Dürdanə Abdullayevanın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!